Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

29 YANVAR 2020-ci il

№ 15 (4146)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# POTENSİALLI NAMİZƏDLƏRİN KİMİSİNƏ MANDAT, KİMİSİNƏ DÖVLƏTDƏ VƏZİFƏ - SEÇKİDƏN SONRA AZƏRBAYCANDA DAHA BİR YENİ MODEL...

səh. 7

Çoxqütblü dünyada Azərbaycanın faydaları - Prezident bu məsələni Rusiya auditoriyasının da müzakirəsinə verdi...

səh. 2

30 yanvar Cenevrə görüşü də nəticəsiz qurtarsa... Qarabağ müharibəsi bir neçə addım da yaxınlaşacaq...

səh. 9

AŞPA-nın Azərbaycanda seçkiqabağı mühitə qeyri-adekvat münasibəti - ikili standartlar AŞPA metodikasından çıxmır

səh. 4

İsrail Ermənistanın faşistpərəst siyasətinə hələ rəsmi münasibət bildirməyib

səh. 5

Paşinyanla Sarkisyanın partiyası "Qarabağ siyasətindən qalmış miras" üstündə bir-birini qırmağa başlayıb

səh. 10

Azərbaycanın neft qiyməti siyasətinə dünya miqyaslı pozitiv reaksiyalar Davosdan sonra yeni mərhələdə...

səh. 11

Bu il bankların təzə problemi yarana bilər - depozitləri və faizləri qaytara bilməmək...

səh. 12

Təhsil naziri məktəbli formalarının bahalığına qarşı çıxdısa - kasıbların bəxti gətirəcək...

səh. 14

"Golden World Travel" adlı turist şirkətinin də fırıldaqları açıldı

səh. 13



səh. 3

## Azərbaycan qorxulu «Çin virusu» ilə fövqəladə mübarizə rejiminə keçdi

*Prezidentin tapşırığı ilə müşavirə keçirildi, gücləndirilmiş iş rejimi tətbiq edildi*





Azərbaycan Prezidenti Rusiya-Türkiyə münasibətlərinə niyə bu dərəcədə önəm verdi...

səh. 2

Yeni tərkibdə Azərbaycan Parlamentindən Ermənistanın narahatlıq məqamları...

səh. 7

ABŞ səfirliyi Paşinyanın reytinqini öyrənməyə başladı, baş nazirin varisi də hazırdır

səh. 8

səh. 4

Sabirabadlı seçicilərin arzusu bir cümlə ilə - "növbəti parlamentdə də bizi Əhliman Əmiraslanov təmsil etsin"



səh. 5

Naxçıvan Ali Məclisinə və Milli Məclisə seçkiləri bir-birindən fərqləndirmək səylərinin məqsədi nədir?



səh. 10

Səudiyyədə Qurana 300-dən çox dəyişiklik edilib - Azərbaycan ilahiyyatçılarının fikri...



səh. 13

Tibbi sığortanın ilkin tətbiqi xəstəxanalardan həkim axını prosesi başlatdı - Ağsu xəstəxanasında nə baş verib...



səh. 12

Ötən il Avropadan Azərbaycana gəlmiş turistlərin sayında xeyli artım olub - yeni təzahürün səbəbləri...



# Azərbaycan Prezidenti Rusiya-Türkiyə münasibətlərinə niyə bu dərəcədə önəm verdi...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibə verib. "Rossiya-1" və "Rossiya-24" kanalları dövlət başçısının müsahibəsini yayımlayıb.**

Jurnalistin "Sizcə, bu gün dünyada çoxqütblülük əlamətləri varmı" sualına İlham Əliyev belə cavab verib: "Şübhəsiz, bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi var. Əlbəttə, bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır. Düşünürəm ki, bu meyllər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir. Bilirsiniz, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir. Burada təzə heç nə yoxdur. Biz bunu əsrlər boyu müşahidə edirik, sadəcə, müxtəlif intensivlik dərəcəsi ilə. Buna görə məsələ bunda deyil, bugünkü dünya nizamının konstruksiyası, o cümlədən, beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdırlar".

Göründüyü kimi, Prezident regionumuzdakı stabillik və təhlükəsizliyə böyük önəm verdiyini deyir və bu xüsusda əvvəllər münasibətləri o qədər də sıx olmayan ölkələrin hazırda müttəfiqlik səviyyəsində fəaliyyət göstərdiyini qeyd edib. Ölkə başçısı hansı ölkələri nəzərdə tutub?

Politoloq Qabil Hüseynli qəzetimizə bildirdi ki, ölkə başçısı burada Türkiyə ilə Rusiya arasında olan yaxınlaşmanı nəzərdə tutub: "Bilirsiniz ki, Suriya ilə sərhəddə Türkiyə tərəfindən Rusiyaya məxsus qırıcı təyyarə vuruldu. Həmin hadisədən sonra ölkələr arasında vəziyyət gərginləşdi. Türkiyə Azərbaycanın strateji müttəfiqidir. Rusiya isə nə qədər işğalçı Ermənistana yaxın olsa da, Azərbaycanla tərəfdaşlıq

## *Qabil Hüseynli: "İki ölkə arasında münasibətlərin normallaşması Azərbaycan üçün həm strateji, həm iqtisadi, həm də siyasi cəhətdən əlverişlidir"*



münasibətləri var. Və biz Rusiyadan silah və sursat alırıq. Bu mənada iki ölkə arasındakı münasibətlərin gərgin olması Azərbaycanın maraqlarına mənfi təsir edirdi. Həm də bundan işğalçı dövlət yararlanmağa çalışırdı. Təbii ki, Azərbaycanın iki qonşusu arasında münasibətlərin yüksək səviyyədə olması ölkəmiz üçün də müəyyən əhəmiyyət kəsb edir. Çünki Rusiya da, Türkiyə də rəsmi məlumatlarda göstərilir ki, dost ölkələrdir. Strateji tərəfdaş ölkələrdir. Azərbaycanın Rusiya ilə kifayət qədər böyük ticarət əlaqələri var. Soydaşlarımız Rusiyada yaşayır, fəaliyyət göstərirlər. Türkiyəyə gəldikdə isə, Cənubi Qafqaz regionunda bütün beynəlxalq layihələr Türkiyənin iştirakı ilə həyata keçirilir. İki ölkə arasında münasibətlərin normallaşması bu baxımdan Azərbaycan üçün həm strateji, həm iqtisadi, həm də siyasi cəhətdən əlverişlidir. Ən azından, Azərbaycan iki ölkə arasında seçim qarşısında qalmayacaq. Bu baxımdan yüksək qiymətləndirmək olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Çoxqütblü dünyada Azərbaycanın faydaları - Prezident bu məsələni Rusiya auditoriyasının da müzakirəsinə verdi...

**Bu gün dünya məhz çoxqütblü dünya kimi inkişaf edir. Bir neçə güc mərkəzi var. Əlbəttə, bizi narahat edən məsələlər var - regionumuzda gərginliyin artması. Lakin biz müsbət dinamikanı da görürük, əvvəllər bu cür sıx qarşılıqlı fəaliyyəti olmayan ölkələr bu gün, demək olar ki, müttəfiqlər kimi hərəkət edir və regional sabitliyə böyük töhfə verirlər. Buna görə də çoxqütblü dünya artıq reallıqdır.**



Düşünürəm ki, bu meyllər getdikcə daha da möhkəmlənəcək. Bu, müsbət haldır, çünki bu, dünyada sabitliyə zəmanətdir.

Bu fikirləri Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" telekanalına müsahibəsində deyib.

Dövlət başçısı qeyd edib ki, iri ölkələrin həmişə öz hüdudlarından kənarda maraqları olur və hər ölkə özü üçün daha yaxşı şəraitə nail olmaq, öz təsir dairəsini genişləndirmək istəyir: "Biz bunu müxtəlif intensivlik dərəcəsi ilə əsrlər boyu müşahidə edirik. Bugünkü dünya nizamının konstruksiyası, o cümlədən, beynəlxalq münasibətlərin konstruksiyası çoxqütblülüyü nəzərdə tutur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin tərkibinə baxsaq, bu, artıq dünyanın çoxqütblülüyünün əksidir. Daimi üzvlərdən birinin razılığı olmadan heç bir qərar qəbul edilə bilməz. Buna görə də düşünürəm ki, ölkələr özləri üçün birqütblülüyü təmin etməyə çalışmamalı, əksinə, hamı üçün sərfəli olan əməkdaşlıq elementləri tapmalıdırlar".

Bütün bu deyilənlərlə yanaşı, Azərbaycan üçün çoxqütblü dünya nə dəməkdir və bunun hansı üstünlükləri var?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafov çoxqütblülüyün üstünlüklərinə bir neçə aspektdən yanaşdı: "SSRİ süqut edənə qədər dünya çoxqütblü idi. Sovet İttifaqının çökməsi ilə birqütblü dünya formalaşmış oldu. Faktiki olaraq dünyada baş verən qlobal mahiyyətli proseslərə münasibətdə, ayrı-ayrı dövlətlərin həyatında yaşanan proseslərə ABŞ-ın təsir imkanları əhəmiyyətli şəkildə artmış oldu. Lakin son 10 ildə Rusiyanın, Çinin və onların siyasətinə dəstək verən dövlətlərin ümumi səyləri nəticəsində dünya artıq çoxqütblü olub. Mahiyyət etibarilə dünyanın çoxqütblü olması ayrı-ayrı yerlərdə müəyyən münaqişələrin həllinə kömək edə bilər. O mənada ki, beynəlxalq güclər arasında münasibətlərin xarakteri müəyyən münaqişələrin həlli imkanlarını artırıb. Hesab edirəm ki, bu baxımdan dünyadakı bir sıra münaqişələrin həlli ilə bağlı müxtəlif modellər tətbiq oluna bilər. Belə siyasət Qarabağ münaqişəsinin həllini sürətləndirə bilər. Bu baxımdan çoxqütblü dünya Azərbaycanın maraqlarına uyğundur. Çünki beynəlxalq güclər arasında ziddiyyətlərin artması kiçik dövlətlərin bu münasibətlərdən istifadə edərək manevr imkanlarını artırır. Bu da, təbii ki, Qarabağ probleminin həlli ilə bağlı məsələlərdə Azərbaycana yaxın perspektivdə müəyyən ümidlər verir. Hər halda, sözügedən problemin həlli ilə bağlı çoxqütblü dünya düzəni müəyyən yol aça bilər. Bu mənada, Azərbaycan diplomatiyası çoxqütblü dünyanın bölgə üçün yaratmış olduğu müəyyən reallıqlardan istifadə edə bilər. O baxımdan sözügedən dünya düzəni Azərbaycanın maraqlarına uyğundur".

## *Elşən Manafov: "Belə siyasət Qarabağ münaqişəsinin həllini sürətləndirə bilər"*

*"...çoxqütblü dünya Azərbaycanın maraqlarına uyğundur"*

***Vidadi ORDAHALLI***

**Aydın Quliyev Mətbuat Şurasının sədri Əflatun Amaşova qaynatası Qasım Qasımovun vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Azərbaycan qorxulu "Çin virusu" ilə fövqəladə mübarizə rejiminə keçdi

*Prezidentin tapşırığı ilə müşavirə keçirildi, gücləndirilmiş iş rejimi tətbiq edildi*




***Nəsib Quliyev:** "Hesab edirəm, dövlət başçısının bu yöndə verdiyi tapşırıq ölkə vətəndaşlarının, eləcə də ölkəmizə gələn qonaqların təhlükəsizliyinin təmin olunması baxımından böyük dəyərə malikdir"*

***Qabil Hüseynli:** "Azərbaycan dövlətinin koronavirusla mübarizə istiqamətində həyata keçirməyə başladığı işlərin, qabaqlayıcı tədbirlərin əhəmiyyəti böyükdür"*

**Prezident İlham Əliyevin tapşırığına əsasən Nazirlər Kabinetində, Ümumdünya Səhiyyə Təşkilatının və Çin Xalq Respublikası hökumətinin elan etdiyi kimi, ÇXR-in Uhan şəhərində yayılmış və artıq dünyanın başqa regionlarında da qeydə alınmış koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsi üçün müşavirə keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat Xidmətindən "Trend"ə verilən məlumata görə, Baş nazirin sədrlik etdiyi müşavirədə aidiyyəti dövlət qurumlarının rəhbərləri iştirak edib.

Müşavirədə epidemiyanın Azərbaycana daxil olmasının qarşısının alınması üçün müzakirələr aparılıb.

Müşavirənin yekununda belə hallar üçün nəzərdə tutulmuş aşağıdakı tədbirlərin görülməsi haqda qərar qəbul edilib:

- sərhəd-keçid məntəqələrində gücləndirilmiş iş rejiminə keçilməsi;
- ÇXR-dən, xüsusilə epidemiya zonasından ölkəyə gələn bütün şəxslərin mütləq şəkildə ciddi tibbi müayinədən keçirilməsi və nəzarət altına alınması;
- xüsusi risqli hesab olunan və virusun keçə biləcəyi ərzaq məhsullarının siyahısının hazırlanması və ərzaq bazarında həmin məhsullara nəzarətin gücləndirilməsi;
- səhiyyə ocaqlarında qaynar xətlərin yaradılması;
- virus və onunla mübarizə metodları haqda əhali ilə maarifləndirmə işlərinin aparılması;
- vəziyyətlə bağlı əhaliyə mütəmadi məlumat verilməsi.

Əhalinin nəzərinə çatdırılır ki, ölkədə belə vəziyyətlərdə ehtiyacın yarana biləcəyi bütün tibbi ləvazimatlar kifayət qədərdir.

O da vurğulanıb ki, hazırda ölkəmizdə belə xəstəliyə yoluxma halları müşahidə olunmayıb, Azərbaycanda əhalinin sağlamlığı ilə bağlı vəziyyət dövlətin tam nəzarətindədir və narahatlıq üçün heç bir əsas yoxdur.

Müşavirədə Səhiyyə nazirinin rəhbərliyilə və aidiyyəti qurumların iştirakı ilə işçi qrupun yaradılması qərarı qəbul edilib.

Tədbirlərin görülməsində Ümumdünya Səhiyyə Təşkilatının müvafiq tövsiyələri nəzərə alınır, Azərbaycanın ÇXR-dəki səfirliyi və ÇXR-in Azərbaycandakı səfirliyi ilə sıx əlaqə saxlanır. Habelə, Azərbaycanın Çindəki səfirliyi ÇXR-in dövlət qurumları və Çində olan Azərbaycan vətəndaşları ilə daimi təmasdadır.

Koronavirus 2019-nCoV virusuna qarşı həyata keçiriləcək əks-epidemik tədbirlərlə bağlı "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin (TƏBİB) "İnfeksion xəstəliklərə nəzarət üzrə işçi qrupu"nun Dövlət Gömrük Komitəsinin rəhbər şəxsləri ilə birgə iclası keçirilib.

İclası giriş sözü ilə açan TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Çin Xalq Respublikasında 2019-cu ilin dekabr ayında yeni aşkar edilmiş Koronavirus 2019-nCoV virusuna qarşı respublikanın sərhəd-keçid məntəqələrində və müalicə müəssisələrində təcili olaraq yerinə yetirilməli infeksion nəzarət tədbirlərindən danışıb. İclasda sözügedən virusun dünyada və respublika səviyyəsində mövcud epidemioloji vəziyyəti barədə, virusun növləri, yayılma arealı, virusun xarici mühitdə davamlılığı, xəstəlikdən mövcud ölüm səviyyəsi barədə məlumat verilib.

Qeydə alına biləcək 2019-nCoV infeksiyasına qarşı əks-epidemik tədbirlərin Səhiyyə Nazirliyi ilə koordinasiyalı əməkdaşlıq şəraitində həyata keçirilməsi, respublikanın hər bir sərhəd-keçid məntəqəsində ölkəyə daxil olan yerli və əcnəbi vətəndaşların infeksiya barədə maarifləndirilməsi, hər bir sərhəd-keçid məntəqəsində ölkəyə daxil olan şəxslərin termal kameradan keçmələrinin təmin edilməsi, ÇXR-dən təyyarə ilə gələn sərnişinlərin isə məsafədən termometriya edilməsi, infeksiyaya şübhəli olan şəxslərin sərhəd-keçid məntəqələrinin karantin otaqlarında izolyasiya edilməsi, şübhəli hal barədə "103" təcili yardım xidmətinin məlumatlandırılması, Bakı şəhərində yerləşən sərhəd-keçid məntəqələrində aşkar edilmiş şəxslərin həmin karantin otaqlarından "103" təcili yardım xidməti ilə daşınaraq xüsusi ayrılmış xəstəxanaların infeksion şöbələrinə yerləşdirilməsi, Respublikanın rayonlarında yerləşən sərhəd-keçid məntəqələrinə uyğun olaraq həmin rayonların Mərkəzi Rayon Xəstəxanalarının infeksion şöbələrində iki infeksion palatanın hazırlıq vəziyyətinə gətirilməsi barədə qərar qəbul edilib.

Qeyd edək ki, tibb müəssisələrində sanitariya-gigiyena, əksepidemik rejimlərin tələblərinin yerinə yetirilməsi və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi işi gücləndirilib, kəskin respirator virus infeksiyasına şübhəli xəstələrin, xüsusən uşaqların və yaşlı əhalinin hospitalizasiyası üçün xüsusi palatalar ayrılıb.

Bu müşavirənin keçirilməsinin koronavurus epidemiyası ilə bağlı təhlükənin qarşısının alınmasında əhəmiyyətli rol oynayacağını deyən professor Nəsib Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan dövləti hər zaman dünyada bu cür təhlükəli hallar baş verdikdə əvvəlcədən təhlükəsizlik tədbirləri görür. "Cənab Prezidentin tapşırığı ilə Nazirlər Kabinetində koronavirusla bağlı keçirilən müşavirənin əhəmiyyəti çox böyükdür və bunu yüksək qiymətləndirirəm. Hesab edirəm, dövlət başçısının bu yöndə verdiyi tapşırıq ölkə vətəndaşlarının, eləcə də ölkəmizə gələn qonaqların təhlükəsizliyinin təmin olunması baxımından böyük dəyərə malikdir. Onu da deyim ki, bununla bağlı artıq Səhiyyə Nazirliyinə əmr imzalanıb. Dövlət gömrüyündə, sərhəd keçid məntəqələrində təhlükəsizlik tədbirləri görülüb və ölkəmizə daxil olanlar xüsusi müayinədən keçirilir. Çin Xalq Respublikasından ölkəmizə gələn insanlarla bağlı tədbirlər aparılır. Eyni zamanda ölkə daxilində də bu istiqamətdə işlər aparılır. Düşünürəm ki, bizim ölkədə ciddi təhlükəsizlik tədbirləri görüldüyü üçün bu təhlükəli epidemiya Azərbaycandan yan keçəcək. Prezdentin göstərişilə artıq qabaqlayıcı tədbirlər həyata keçirilir. İlk növbədə ölkəmizə gəlib-gedən adamların vastəsilə həmin təhlükəli virusun ölkəmizə gəlməsinin qarşısını almaq üçün tədbirlər görürük. Bizim ölkəmizdə koronavirus yoxdur. Sərhəd keçid məntəqlərində artıq "teplovizorlar"ın köməkliyi ilə cihazlar tətbiq olunur. Bilirsiz ki, artıq sərhəd keçid məntəqələrində, xəstəxanalarda gücləndirilmiş iş rejiminə keçilib və bütün səhiyyə sistemi, eləcə də bütün əlaqədar qurumlar bu yöndə səfərbər olunub" deyə professor bildirdi.

Tanınmış politoloq, professor Qabil Hüseynli də hesab edir ki, Prezidentin müvafiq tapşığı ilə keçirilən müşavirə koronavirusun ölkəmizə gəlməsinin qarşısının alınmasında əhəmiyyətli rola malikdir: "Bu çox təhlükəli bir virusdu. Hələ ki, dünyada onun nə peyvənd, nə də müalicə edilməsinin yolları tapılıb. Ən qorxulusu da odur ki, o, Çindən digər ölkələrə də yayılır. Buna görə də, Azərbaycan dövlətinin koronavirusla mübarizə istiqamətində həyata keçirməyə başladığı işlərin, qabaqlayıcı tədbirlərin əhəmiyyəti böyükdür. Səhiyyə Nazirliyi bununla bağlı xüsusi əmr verib və bu əmrə uyğun olaraq Bakı şəhərində və rayonların mərkəzi xəstəxanalarında bu vurusa yoluxan xəstələrin müalicəsi üçün xüsusi palatalar ayrılıb, sərhəd keçid məntəqlərində gücləndirilmiş iş rejiminə keçilib. Hesab edirəm ki, koronavirus Azərbaycana gəlməyəcək, çünki bizdə indidən güclü tədbirlər görülür. Dövlətin öz vətəndaşlarını belə vəziyyətlərdə qoruması onun əsas vəzfələrindən biridir və Azərbaycan dövləti də öz vəzifəsini yerinə yetirir" - deyə Q.Hüseynli vurğuladı.

***İradə SARIYEVA***





# Sabirabadlı seçicilərin arzusu bir cümlə ilə - "növbəti parlamentdə də bizi Əhliman Əmiraslanov təmsil etsin"

*Akademikin seçicilərlə silsilə görüşləri davam edir*





**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizəd akademik Əhliman Əmiraslanovun seçicilərlə silsilə görüşləri davam edir.**

Növbəti belə görüş Sabirabad rayonunun Qasımbəyli kənd orta məktəbində Qasımbəyli, Əsgərbəyli, Yuxarı-Axtaçı və Muradbəyli kəndlərinin seçiciləri ilə baş tutub. Kənd camaatı tərəfindən xoş və mehribanlıqla qarşılanan Əhliman Əmiraslanov sakinləri maraqlandıran məsələlərdən söz açaraq, son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən Sabirabad rayonunda aparılan quruculuq işlərindən, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər və nəzərdə tutulan yeni layihələr barədə məlumat verib: "Hər birimiz Yeni Azərbaycan Partiyasının sədri, möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı siyasətə dəstək olaraq, Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi yol ilə, dövlətimizin inkişafı üçün səylərimizi əsirgəməyərək "Daha güclü Azərbaycan naminə" yeni hədəflərə doğru addımlamalıyıq. Biz inanırıq ki, dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində torpaqlarımız tezliklə işğaldan azad olunacaq. İnanıram ki, uğur daim bizimlə olacaq ".

Sonra çıxış edən seçicilər Ə.Əmiraslanovun deputat olduğu ötən illər ərzində seçicilərinin sosial-rifah halının yaxşılaşdırılması məqsədilə görülən işlərdən, hər hansı bir xəstəliklə bağlı deputata müraciət etdikdə dərhal lazımi tibbi xidmətlə təmin olunduqlarından danışaraq, növbəti çağırış parlamentdə də millət vəkili kimi məhz Ə.Əmiraslanovun onları təmsil etməsi arzusunda olduqlarını açıqlayıblar.

# AŞPA-nın Azərbaycanda seçkiqabağı mühitə qeyri-adekvat münasibəti - ikili standartlar AŞPA metodikasından çıxmır

**9 fevral parlament seçkilərilə bağlı seçkiqabağı mühiti qiymətləndirmək üçün yanvarın 22-23-də Bakıda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) nümayəndə heyəti öz rəyini açıqlayıb.**




***Vüqar Rəhimzadə:*** *"Qurumun nümayəndə heyətinin məlum rəyi birmənalı surətdə qərəzə söykənir və obyektivlikdən tam uzaq subyektiv yanaşmadır"*

Qurumun nümayəndə heyəti ölkədəki seçkiqabağı vəziyyətə qərəzli prizmadan yanaşaraq hesab edir ki, Azərbaycandakı atmosfer demokratik seçkilərə xidmət etmir. Rəydə bildirilir ki, müxtəlif həmsöhbətlərlə müzakirələrdən sonra AŞPA nümayəndə heyəti qalan müddətdə vəziyyətin yaxşılaşdırılması və heç olmasa problemlərin bir hissəsinin həlli üçün imkanların olduğunu vurğulamağı vacib sayır. Guya bəzi aləqədar tərəflər əsas hüquqlara, xüsusən ifadə və sərbəst toplaşma azadlığına əməl olunması ilə bağlı ciddi narahatlıqlarını ifadə ediblər. Müxalifət partiyaları nümayəndə heyətinə bildiriblər ki, məhdudlaşdırıcı şəraitə görə seçkini boykot etmək qərarına gəliblər. Bununla belə, nümayəndə heyəti bir çox həmsöhbətin söylədiyi və seçki komissiyalarının müstəqilliyi ilə bağlı Venesiya Komissiyası tərəfindən dəstəklənən şübhələri nəzərə alıb. Guya əsas azadlıqların konstitusiya təminatına baxmayaraq, hökuməti tənqid edənlər sistematik şəkildə təqib olunurlar.

Göründüyü kimi, AŞPA nümayəndə heyəti ciddi araşdırma aparmadan yenə də seçkilərə qərəzli müstəvidən yanaşdı. Ən azından, Azərbaycanda seçkiqabağı mühit demokratik olmasaydı, o zaman parlamentə iddiası olan yüzlərlə namizəd qeydə alınmazdı, onlara təbliğat-təşviqat kampaniyası ilə bağlı hərtərəfli şərait yaradılmazdı. O üzdən, AŞPA-nın ölkədəki seçkiqabağı vəziyyətə belə qərəzli münasibət sərgiləməsini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, AŞPA nümayəndə heyətinin məlum rəyi birmənalı surətdə qərəzə söykənir: "Eyni zamanda, obyektivlikdən tam uzaq subyektiv yanaşmadır. Ümumilikdə, bir sıra beynəlxalq təşkilatlar var ki, onlar müntəzəm olaraq bu cür qərəzli yanaşmalar ortaya qoyurlar. Ötən seçkilərdə dəfələrlə bunun şahidi olmuşuq. Bir sıra beynəlxalq təşkilatların nümayəndələri hazır bəyanatlarla ölkəyə gəlirlər və Azərbaycandakı seçki mühiti ilə bağlı heç bir əlaqəsi olmayan fikirlər səsləndirirlər. O üzdən, AŞPA nümayəndə heyətinin məlum rəyi bu qəbildən olan yanaşmadır. Ölkədə seçkiqabağı mövcud vəziyyət, mövcud durum və yaradılmış şərait hesab edirəm ki, bir sıra digər Avropa ölkələri üçün nümunə olacaq səviyyədədir. Özlərini demokratiyanın beşiyi hesab edən ölkələr var ki, bir sıra tələblərə heç əməl etmirlər. O mənada, təbii ki, AŞPA-nın Azərbaycanla bağlı rəyi qərəzə söykənir və ədalətsiz bir fikirdir. Budəfəki seçkilər namizədlərin sayına və digər parametrlərə görə daha da ədalətli olacaq. Hesab edirəm ki, Azərbaycanda bu sahədə uğurların və irəliləyişlərin olduğu faktdır. Ona görə də AŞPA-nın yanaşması qərəzlidir və ədalətsiz bir mövqedir".

*"Ümumilikdə, bir sıra beynəlxalq təşkilatlar var ki, onlar müntəzəm olaraq bu cür qərəzli yanaşmalar ortaya qoyurlar"*

***Vidadi ORDAHALLI***

# Naxçıvan Ali Məclisinə və Milli Məclisə seçkiləri bir-birindən fərqləndirmək səylərinin məqsədi nədir?

**Azərbaycanda vahid seçki qanunvericiliyi əsasında seçki prosesi getdiyi üçün həm Milli Məclisə, həm də Naxçıvan Ali Məclisinə seçkilər eyni prosesin prinsipcə bir-birindən fərqlənməyən tərkib hissələridir.**



***Aydın Quliyev:** "Naxçıvanda seçkilərin "qapalı" və ya "cəmiyyətdən xəbərsiz" aparıldığı kimi rəylər qərəzlidir"*

Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, son vaxtlar bəzi siyasi dairələrin Milli Məclis və Naxçıvan Ali Məclisinə seçkiləri bir-birindən fərqli təqdim etmək cəhdləri qərəzlidir və prosesin vahid mahiyyətinə uyğun deyil: "Ümumi seçki prosesinin çoxpartiyalı və plüral mahiyyətini ölkənin hər iki parlamentinə seçkilərdə görmək mümkündür. Milli Məclisə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərin hər ikisinin ölkənin parlamentarizm praktikasında rolu və əhəmiyyəti var.

Bəzi siyasi dairələrin Naxçıvanda seçkilərin "qapalı" və ya "cəmiyyətdən xəbərsiz" aparıldığı kimi rəyləri siyasi qərəz xarakterlidir və Azərbaycanda vahid seçki prosesinə zidddiyyətli münasibətlər formalaşdırmaq cəhdindən başqa bir şey deyil. Bütün dünyanın, hətta təcavüz siyasətini davam etdirən Ermənistanın Azərbaycanda seçkiyə az qala "lupa altında" baxdığı bir şəraitdə seçkilərə kölgə salmaq cəhdlərinin bütün formaları yolverilməzdir. Bu gün Ermənistan Azərbaycandakı seçkilərin beynəlxalq standartlara uyğun olmadığını dünya rəyinə çevirmək üçün hər şey edir. Məqsəd Ermənistan parlamentarizm ənənələrinin beynəlxalq standartlara daha çox uyğun olduğunu, Azərbaycanda isə, guya tam fərqli standartların mövcudluğunu göstərməkdir. Belə bir şəraitdə Milli Məclisə və Naxçıvanda Ali Məclisə seçkilərin gedişinə şübhələr yaratmaq səyləri ümummilli və dövlətçilik mənafelərimizə uyğun olmayan mövqelər kimi təzahür edir".

Ekspert vurğulayıb ki, məlum dairələrin Naxçıvandakı seçkilərə "qapalı" yarlığı vurmaq cəhdləri təsadüf deyil: "Məsələ burasındadır ki, Milli Məclisə keçiriləcək seçkinin indiyə qədərki bir neçə mərhələsi ciddi beynəlxalq və daxili tənqidlərin olmadığı səviyyədə keçirilib. Bu seçkinin yekun nəticələrini də ciddi fikir ayrılıqları olmadan bütün müşahidəçi tərəflərin anlayışla qarşılayacağına şübhə edilmir. Ona görə də məlum dairələr Naxçıvandakı seçkilərə bəzi adekvat olmayan yarlıqlar vurmaqla Milli Məclis seçkiləri ilə bağlı uğursuz taktikalarını bu müstəvidə reallaşdırmaq istəyirlər. Başqa sözlə desək, Naxçıvanın nisbətən uzaq və Azərbaycanın əsas hissəsindən təcrid vəziyyətində olması oradakı prosesləri hər cür rənglə göstərməyin mümkünlüyü barədə əsassız ümidlər yaradır.

Naxçıvanın spesifik coğrafi xüsusiyyətləri əsasında seçki prosesinə uyğun olmayan qiymət vermək taktikası perspektivsizdir. Azərbaycanın Milli Məclisinə seçki necə gedirsə, Naxçıvan Ali Məclisinə seçkilər də o cür gedir. Burada sadəcə müəyyən qanuni texniki prosedur fərqləri var, qrafik fərqləri isə heç bir həlledici rol oynamır. Odur ki, Naxçıvandakı seçkilərə qaralayıcı münasibətlər Milli Məclis seçkilərinə qərəzli yanaşmaların davamı və tərkib hissəsidir".

Xatırladaq ki, fevralın 9-da Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Bəzi internet saytları Naxçıvan Ali Məclisinə keçirilən seçkilərin guya "gizli" aparıldığını yazır. Lakin qanunvericiliyə görə, Naxçıvan Ali Məclisinə namizədliyini irəli sürmüş şəxslər təbliğat-təşiqat mərhələsinin bitməsinə 10 gün qalmış bu prosesi apara bilər. Ona görə də bu gündən Naxçıvan Ali Məclisinə seçilməyə iddialı olan namizədlər öz təbliğatlarına start veriblər.

# İsrail Ermənistanın faşistpərəst siyasətinə hələ rəsmi münasibət bildirməyib

**İkinci Dünya Müharibəsi zamanı Osvensim düşərgəsinin azad edilməsinin 75-ci ildönümünü və Holokostu qeyd etmək üçün Rusiya, Fransa, Ukrayna prezidentləri, habelə ABŞ-ın vitse-prezidenti və bir sıra digər ölkələrin yüksək çinli rəsmiləri İsraildə olublar.**



***Elşən Həsənov:** "Faşist rejiminə qulluq etmiş və yəhudilərin soyqırımında birbaşa əli olan Njde Qaregin məsələsində isə İsrail mövqeyini konkret bildirməlidir"*

Tədbirə dəvətlilər arasında Ermənistan Prezidenti Armen Sarkisyan da olub (Azərbaycanı bu tədbirdə Milli Məclisin sədri Oqtay Əsədov və qurumun Beynəlxalq və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təmsil edib). Sarkisyanın İsraildə peyda olması birmənalı qarşılanmayıb. Çünki işğalçı Ermənistan hazırda dövlət və cəmiyyət olaraq Qaregin Njde kimi faşist və nasist əlaltılarına rəğbət bəsləyir. Onlara, üstəlik, İrəvanda abidə ucaldılıb, adları meydan və metrostansiyaya verilib. Ancaq nə Prezident Armen Sarkisyan, nə də Baş nazir Nikol Paşinyan Njdenin hələ köhnə rejim dövründə - 4 il öncə (2016) qəhrəmanlaşdırılmasına və ona abidə qoyulmasına heç bir etiraz bildirməyiblər. Əksinə, Paşinyan onunla qürur duyduğunu bəyan edib. A.Sarkisyan isə indi məhz faşist ideologiyasına rəsmi rəğbəti olan bir ölkənin başçısı kimi İsrailə yollanıb. Maraqlıdır ki, İsrail hökuməti faşizmi dəstəkləyən bir ölkə kimi Ermənistana indiyə qədər rəsmi etirazını bildirməyib. Qeyd edək ki, İsrail bütün dünyaya bəyan edir ki, faşistlər yəhudiləri kütləvi qırğına məruz qoyublar. Təbii ki, həmin qırğınlarda Hitlerin yaxın silahdaşı Njdenin də iştirakı şübhə doğurmur. Onda isə İsrail niyə Ermənistanın yürütdüyü faşizm siyasətinə bu günə kimi rəsmi etiraz etmir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ilk növbədə, Holokost sözünün hansı məna verdiyinə nəzər salmaq lazımdır: "Holokost Almaniyanın faşizm dövründə törətdiyi, təxminən 6 milyon nəfərin sistemli şəkildə öldürüldüyü qətliama verilən addır. Yəni milli və dini mənsubiyyətinə görə bütöv bir xalqın məhv edilməsinə yönəlik bir qərardır.

Qeyd etdiyiniz kimi, bu yaxınlarda Holokostla bağlı keçirilən tədbirə Ermənistan rəhbərliyinin dəvət aldığı təqdirdə, Azərbaycanın niyə Prezident səviyyəsində tədbirə dəvət almaması sual yaradır. Doğrudan da faşist rejiminə qulluq etmiş, yəhudilərin qətliamında birbaşa əli olan erməni əsilli Njde Qareginə Ermənistan adlanan ərazidə heykəl belə ucaltmağı özünə rəva bilən Ermənistan rəhbərliyinin dəvət alması təəccüb doğura bilər. Axı Ermənistan bu qaniçən, bütöv bir xalqın qətliamında əli olan adamı milli qəhrəman obrazında beynəlxalq aləmdə tanıtmaq cəhdində bulunmaqdadır.

Lakin gəlin məsələyə başqa prizmadan yanaşaq. Bu məsələdə başqa incə bir detal var. Bildiyimiz kimi, hər iki dövlətin Türkiyəyə münasibəti birmənalı deyil. Hətta deyərdim ki, bu dövlətləri Türkiyə Cümhuriyyətinə münasibətdə ümumi siyasi məqsədlər, maraqlar birləşdirir. O səbəbdən də Ermənistan Prezidentinin tədbirə dəvət alması heç də təsadüfdən doğmur.

Azərbaycan tərəfinə gəldikdə isə, məsələ tamamilə başqa yanaşma tələb edir. Azərbaycanla İsraili əsası 90-cı illərin əvvəllərində qoyulmuş dostluq telləri birləşdirir ki, bu da özünü bütün sahələrdə göstərməkdədir. Sadəcə, Azərbaycan müsəlman əhalinin əksəriyyət təşkil etdiyi dünyəvi dövlət olaraq islam dövlətlərinin beynəlxalq təşkilatlarında tam və bərabərhüquqlu üzv qismində fəaliyyət göstərir.

Əlbəttə, İsrail və ərərb ölkələrinin münasibəti, ələlxüsus da Fələstin məsələsinə münasibət mövqeyindən yanaşdıqda, rəsmi etika xatirinə Azərbaycanın tədbirə ən yüksək səviyyədə dəvət almamasını normal qarşılayıb, qəbul etmək mümkündür. Üstəgəl, İran faktorunu da buraya əlavə etsək, siyasi mənzərə tamamilə aydınlaşır.

Faşist rejiminə qulluq etmiş və yəhudilərin soyqırımında birbaşa əli olan Njde Qaregin məsələsində isə İsrail mövqeyini konkret bildirməlidir. Özü soyqırıma məruz qalmış Azərbaycan buna kəskin münasibətini bildirirsə, İsrail niyə kənarda qalmalıdır?"

***Məhəmmədəli QƏRİBLİ***

**Ölkədə növbədənkənar parlament seçkilərinə sayılı günlər qalıb. Deputatlıq uğrunda mübarizə aparan namizədlərin təbliğat-təşviqat kampaniyası get-gedə qızışır. Əvvəlki seçkilərdən fərqli olaraq, bu dəfə namizədlər daha obyektiv rəqabət aparırlar. Cənab Prezident İlham Əliyevin son vaxtlar ölkədə daha sürətli kadr islahatları aparması, parlament seçkilərində namizədləri xalqla birbaşa ünsiyyətə çağırması rəqabəti daha da gücləndirib.**

# Yalan vədlərə son - bu dəfə özümüzdən biri olacaq!







Prezident İlham Əliyevin "Xalqa işləyən seçilsin ki, bizimlə xalq arasında körpü rolunu oynasın" sitatı seçiciləri düzgün seçim etməyə, inandıqları namizədə səs verməyə ruhlandırıb. Seçicilərin həqiqətən parlament seçkilərinə inamı artıb. Onlar parlament seçkilərində fəal olmağa cəhd edirlər.

Bu prosesin mən də şahidi oldum - 49 saylı Yevlax-Mingəçevir seçki dairəsindən deputatlığa namizəd Nəsimi Paşayevin təbliğat-təşviqat kampaniyası çərçivəsində. Yevlax rayonunun kəndləri və Mingəçevir şəhərində seçicilərlə görüşlər keçirən Nəsimi Paşayev həqiqətən böyük coşqu, izdihamla qarşılanır. Yevlax rayonunun Xaldan, Salahlı, Xanabad, Tanrıqulular, Əcəmi, Yenicə, Yuxarı Bucaq, Aşağı Salamabad, Yuxarı Salamabad, Balçı kəndlərində və Aran qəsəbəsində seçicilərlə görüşlər bunu tam sübuta yetirdi ki, xalq öz seçimini etməyə və səsini qorumağa qadirdir. Sakinlər görüşdə budəfəki seçkilərə hamı bir nəfər kimi gedəcəyini və seçkilərdə səslərini qoruyacaqlarını iddia edirlər. Dairə seçiciləri budəfəki seçkilərə böyük ümid bəslədiklərini, əsasən tanıdıqları şəxsə səs verəcəklərini və ondan səslərini tələb edəcəklərini deyirlər. Kənd sakinlərində ötən parlament seçkilərindən sonra ümidsizlik yaranıb. Sakinlər bildirirlər ki, əvvəlki seçkidə namizədlər seçicilərə böyük vədlər versələr də, seçkidən sonra bir dəfə də olsa dairədən olan millət vəkilini nə görüb, nə də yazılan müraciətlərə cavab alıblar. Son 4 ildə millət vəkillərinin üzünü görməyən seçicilərdə artıq seçkiyə inamsızlıq yaranıb. Millət vəkili seçiləndən sonra heç bir seçicini qəbul etməyib, onların problemləri ilə maraqlanmayıb. Bu da əhalinin seçkiyə olan inamını azaldıb. Amma parlamentin vaxtından əvvəl buraxılması, Prezidentin uğurlu kadr islahatları indi seçiciləri aktivləşdirib. Artıq seçicilərdə ümid yaranmağa başlayıb ki, bu seçkilərdə xalqın səsini eşidəcək millət vəkili seçiləcək və o, onlarla mütəmadi əlaqə saxlayan şəxs olacaq. Seçicilər namizədə ona görə inanırlar ki, bu günə qədər dairə üzrə seçilmiş millət vəkilini Yevlax və Mingəçevirin problemləri ilə bağlı axtaran seçicinin biri də elə Nəsimi Paşayevin özü olub. Bunu seçicilər özləri etiraf edirlər. Kənd yerində yaşadıqlarından səsləri mərkəzə çatmayan seçicilər dəfələrlə Nəsimi Paşayevə müraciət edərək problemlərini danışıb, onların həlli üçün yuxarı orqanlara müraciət etməsini istəyiblər. Məhz ona görə də bu gün seçicilər Nəsimi Paşayevin yanındadırlar. Keçirdiyi görüşlərdə Nəsimi Paşayev xalqı seçkilərdə fəal olmağa, hamını səs verməyə çağırır. Yanvarın 26-da Mingəçevir şəhərinin ayrı-ayrı səmtlərində seçicilərlə görüşən Nəsimi Paşayev hər kəsi fevralın 9-da səs verməyə dəvət etdi. Mingəçevir seçiciləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən sitatlar gətirərək gənc, dinamik, yenilikçi, xalqla işləməyi bacaran namizədə səs verəcəklərini bildirdilər. Xüsusilə Nəsimi Paşayevin "Bu dəfə özümüzdən biri olsun" sloqanını çox bəyəndiklərini və özlərindən biri olan namizədə - Nəsimi Paşayevə səs verəcəklərini vurğuladılar.

Nəsimi Paşayev seçicilərlə görüşündə onlara heç bir yalan vəd vermir. Namizəd bu vaxta qədər keçirdiyi bütün görüşlərində də əsasən buna çalışır. O, heç bir seçiciyə ev tikməyə, kiməsə pul paylamağa söz vermir. Qəribəsi odur ki, Nəsimi Paşayev heç bir görüşündə seçiciyə "Mənə səs verin!" demir. O yalnız seçicilərdən bir xahiş edir ki, fevralın 9-da hamı seçkilərə getsin və özünün məntiqlə seçdiyi namizədə səs versin. Nəsimi Paşayevin bu çağırışı seçiciləri daha da ruhlandırır, onların seçkidə iştirak etməsinə stimul verir. Nəsimi Paşayev bütün seçicilərinə hər zaman onların yanında olacağına, sadəcə seçkidən-seçkiyə deyil, mütəmadi olaraq seçildiyi bölgəyə gələrək dairədə seçicilərinin problemlərini diqqətdə saxlayacağına və bütün problemlərin birgə həll yolunu tapacaqlarına söz verir. Bu sözün isə real olacağına hamı inanır. Səbəb də odur ki, Nəsimi Paşayev Yevlax rayonunun Xaldan kəndində doğulub boya-başa çatıb, ata-baba yurduna tez-tez gəlir. Ən əsası isə, Nəsimi Paşayev burdakı problemlərə tam bələddir, ona kiminsə Yevlax və Mingəçevir barədə məlumat verməsinə ehtiyac yoxdur. Çünki Nəsimi Paşayevin Yevlax rayonu ilə yanaşı, Mingəçevir şəhəri ilə də sıx bağlılığı var. O, Yevlax və Mingəçevirlə daim maraqlanıb, bu ərazilərə mütəmadi gəlib-gedib. Elə buna görə də onun özünü bu bölgədə tanıtmasına ehtiyac qalmayıb. Dairə seçiciləri Nəsimi Paşayevlə görüşə məhz bu səbəbdən can atır. Seçicilər dairə üzrə bütün sakinləri səs verməyə çağırır. Çünki Nəsimi Paşayev onlara bu dəfə hər şeyin fərqli olacağını, seçkidə qələbəni birgə qazanacaqlarını, daha sonra da problemlərin öhdəsindən birgə gələcəklərini söz verir. Nəsimi Paşayev doğulub boya-başa çatdığı Xaldanda həqiqətən coşqu ilə qarşılanır, xaldanlılar sonadək namizədi müdafiə edəcəklərini və seçkidə ona səs verəcəyini israr edirlər. Seçicilər, demək olar ki, hər gün Nəsimi Paşayevlə görüşür, kampaniyanın hansı səviyyədə aparılması ilə maraqlanırlar.

**Xaldan seçiciləri dairənin digər ərazilərindəki seçicilərdən daha fəaldır. Çünki xaldanlılar öz namizədlərinin olmasına sevinir və özlərindən, öz kəndlərindən olan namizədin seçiləcəyinə ümid edirlər. Elə buna görə də xaldanlılar seçkilərdə daha fəal iştirak etməkdə iddialıdırlar. Bir sözlə, 49 saylı Yevlax-Mingəçevir Seçki Dairəsinin bütün seçiciləri fevralın 9-da düzgün seçim edəcəklərinə, özlərindən biri olan Nəsimi Paşayevin parlamentdə təmsil olunacağına əmindirlər! İnanırlar ki, bu dəfə seçkidə qazanan seçicilər özləri olacaq!**

***Samir GÜLƏLİYEV***

# Potensiallı namizədlərin kimisinə mandat, kimisinə dövlətdə vəzifə - seçkidən sonra Azərbaycanda daha bir yeni model...

**Azərbaycanda fevralın 9-da keçiriləcək parlament seçkilərinə ciddi hazırlıq gedir. Keçiriləcək seçkilərdə hazırda qeydiyyata alınmış 1374 namizəd mübarizə aparır. Ümumilikdə, parlament seçkilərində iştirak etmək üçün 2431 nəfər müraciət edib.**

Onların bir hissəsi seçki prosesinin müxtəlif mərhələlərində öz namizədliyini geri götürüb. Bununla belə, namizədlərin 248 nəfəri 19 siyasi partiyanın üzvüdür.

Digər tərəfdən, seçkiləri müşahidə edənlərin sayı da məlum olub. Belə ki, ümumilikdə, 54 min 292 yerli müşahidəçi qeydiyyatdan keçib. Onlardan 1434-ü Mərkəzi Seçki Komissiyasında, 52 min 858-i isə dairə seçki komissiyalarında akkreditasiyadan keçib. Həmçinin, seçkiləri 41 təşkilatı təmsil edən 44 ölkənin vətəndaşı olan 409 beynəlxalq müşahidəçi izləyəcək. Bütün bunlar keçiriləcək parlament seçkilərinə nə qədər böyük marağın olmasının göstəricisidir.

Başqa bir tərəfdən, namizədlərin qeydə alınması ilə bağlı problemlər çox məhdud çərçivədədir. Bu da sözügedən problemin sistem xarakterli olmadığını göstərir. Yəni bu o demək deyil ki, kütləvi şəkildə namizədlər belə problemlərlə üzləşir. Belə problemlər çox az saydadır. Zatən, dünyanın istənilən dövlətində seçki kampaniyası zamanı bənzər problemlər olur. Nəzərə almaq lazımdır ki, Mərkəzi Seçki Komissiyası namizədlərə müraciətində üzləşdikləri problemlərlə bağlı quruma müraciət etməyi bəyan edib. MSK bu kimi problemləri araşdırır və nəticədə bir sıra namizədlərin qeydiyyatı öz həllini tapıb.

O da məlumdur ki, budəfəki seçkidə bir sıra potensiallı namizədlər yarışacaq. Ancaq nə qədər çox namizəd olsa da, son nəticədə dairədən 1 namizəd parlamentə seçiləcək. Buna rəğmən, 9 fevral seçkiləri potensiallı olan bir sıra kadrların üzə çıxarılması baxımından mühüm bir tarixi mərhələ olacaq. Nəzərə almaq lazımdır ki, namizədlərin içərisində çoxsaylı cavan şəxs var. Hansı ki, onların arasında iş təcrübəsi, elmi dərəcəsi olan, xarici dilləri bilən şəxslər var. O baxımdan belə potensiallı namizədlərin üzə çıxarılması mühüm əhəmiyyət kəsb edir.

Maraqlıdır, bacarığı və potensialı olan bu kimi şəxslərin sonrakı mərhələdə müxtəlif dövlət orqanlarına, vacib sahələrə cəlb olunması, onların potensialından istifadə edilməsi perspektivini ekspertlər necə dəyərləndirirlər?

***Məhərrəm Zülfüqarlı:*** *"Belələrinin imkanlarından nə qədər çox istifadə edilsə, bu bir o qədər ölkəmizin inkişafına öz töhfəsini verəcək"*



Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri, ekspert Məhərrəm Zülfüqarlının sözlərinə görə, belə bacarıqlı və potensiallı kadrların imkanlarından sonrakı mərhələdə istifadə ediləcəyi ehtimalı böyükdür: "Çünki müşahidələr göstərir ki, həqiqətən də budəfəki seçkidə çox bacarıqlı şəxslər öz potensiallarını ortaya qoyublar. Keçiriləcək seçkilər və seçki kampaniyası belələrinin üzə çıxmasına münbit zəmin yaradır. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə işlər gedir. O mənada ki, daha bacarıqlı və qabiliyyətli kadrlar şərait yaranan kimi işə cəlb edilir.

**Çünki belələrinin potensialından istifadə edilməsi dövlətin də mənafeyinə uyğundur. Belələrinin imkanlarından nə qədər çox istifadə edilsə, bu bir o qədər ölkəmizin inkişafına öz töhfəsini verəcək. Nəzərə almaq lazımdır ki, ölkədə çoxşaxəli islahatlar aparılır. Bütün bunları nəzərə alsaq, o cür şəxslərin dövlət qulluğuna cəlb edilməsi, onların potensialından istifadə edilməsi gözlənir. Hesab edirəm ki, bunun çox böyük faydası olacaq".**

*Vidadi ORDAHALLI*

# Yeni tərkibdə Azərbaycan Parlamentindən Ermənistanın narahatlıq məqamları...

**Ermənistan KİV-indəki təbliğatdan görünür ki, onlar Azərbaycanda aparılan islahatlardan dərin narahatlıq keçirirlər. Xüsusilə də növbədənkənar parlament seçkiləri ilə bağlı özlərindən müəyyən fərziyyələr uydururlar.**



İddialar var ki, guya Azərbaycan seçkilərin vaxtını dəyişməklə müəyyən məqsədlər güdüb. Xüsusilə də 2018-ci ildə baş tutan prezident seçkilərini Ermənistanı qabaqlamaq cəhdi kimi qiymətləndirirlər. Qeyd edirlər ki, beynəlxalq təşkilatlar Azərbaycandakı seçkiləri izləməyə maraq göstərmir. Təbii ki, bunların hamısı əsası olmayan şayiədən başqa nəsə deyil. Ancaq aydın hiss olunur ki, Ermənistan Azərbaycanda formalaşacaq yeni parlamentdən narahatlıq keçirir və bunu tam büruzə verir. Yeni tərkibli Azərbaycan Parlamentindən Ermənistan niyə bu şəkildə narahat olur?

***Hatəm Cabbarlı:*** *"Ermənistan KİV-i prosesi qaralayır ki, Azərbaycanın aktivinə haqq etdiyi müsbət dividendlər yazılmasın"*

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda baş verən bütün dəyişikliklər qonşu ölkələr, xüsusilə də düşmən Ermənistan tərəfindən maraqla izlənir: "Ermənistan KİV-ində cənab İlham Əliyevin həyata keçirdiyi islahatlar xüsusilə müzakirə mövzusudur. Bu xüsusda növbədənkənar parlament seçkiləri ilə bağlı təhlillərə xüsusi üstünlük verilir. Ancaq həmin yanaşmalarda obyektivlik deyil, qərəzli mövqe ortaya qoyulur. Burda bir məsələyə diqqət edək ki, bizdə baş verən bütün müsbət məqamlar Ermənistan mətbuatında tənqidə məruz qalır. Buna da təbii yanaşmalıyıq. Çünki düşmən olan bir ölkədən bundan başqa mövqe gözləmək olmaz. Ermənistanı burada narahat edən vacib məqamlar var. Bildiyimiz kimi, budəfəki parlament seçkiləri daha demokratik şəraitdə keçirilir. Bu da yeni parlamentin daha sağlam qüvvələrdən formalaşacağına şübhə yeri qoymur. Belə olan təqdirdə ölkənin beynəlxalq imici də artır. Bu səbəbdən də Ermənistan KİV-i prosesi qaralayır ki, Azərbaycanın aktivinə haqq etdiyi müsbət dividendlər yazılmasın. Bundan həm də o nəticəni çıxarmaq olar ki, ölkəmizdə ciddi dəyişikliklərin baş verməsi kənardan da aydın sezilir.

**Belə olmasaydı, Ermənistan KİV-i ölkədə gedən islahatlara hətta böhtan belə atan yazılar dərc etməzdi. Ölkəmizin daha da demokratikləşməsi onun güclənəcəyi anlamına gəlir. Güclü Azərbaycanı isə öz qarşısında ilk görmək istəməyən Ermənistandır".**

*Məhəmmədəli QƏRİBLİ*

# ABŞ səfirliyi Paşinyanın reytinqini öyrənməyə başladı, baş nazirin varisi də hazırdır

**Bölgənin araqarışdıran dövləti kimi tanınan Ermənistanda son günlərdə daxili vəziyyət sürətlə pisləşir. Xüsusən də baş nazir Nikol Paşinyan komandasında vəziyyət kifayət qədər gərgindir. Hətta erməni mediası yazır ki, yaranmış vəziyyətdə Paşinyan yeni inqilabdan qorxur.**

Hazırda proseslər göstərir ki, Ermənistanın hazırkı rəhbərliyinə etimad azalmaqda davam edir. Paşinyanın "məxməri inqilab" zamanı verdiyi vədləri yerinə yetirə bilməməsi baş nazirə inamın azalmasına gətirib çıxarıb. O, 2019-cu ili iqtisadi inqilab ili elan etsə də, bu dönüşü təmin edə bilmədi. Ölkədə işsizlik, miqrasiya problemlərinin qalması sosial-iqtisadi sahələrdə mühüm islahatların aparılmadığından xəbər verir. Ona görə də Ermənistanda növbəti gözlənilməz etirazların baş qaldıracağı istisna olunmur. Ermənistan mətbuatının yazdığına görə, Paşinyanın inqilab yolu ilə hakimiyyətə gəlməsinin təşkilatçısı olan ABŞ onun reytinqinin aşağı düşməsindən narahatlıq keçirir. Hətta ABŞ-ın İrəvandakı səfirliyi Paşinyanın reytinqini öyrənmək üçün hesabatlar hazırlayır. Çünki növbəti etiraz dalğası ABŞ üçün arzuolunmaz bir şəxsin Ermənistanda hakimiyyət başına gəlməsi ilə nəticələnə bilər. Rəsmi Vaşinqton Ermənistanda vəziyyəti nəzarətdə saxlamaq üçün Paşinyana alternativ siyasi varis də hazırlayıb. Bu, baş nazirin müavini Tiqran Avinyandır. Xüsusilə erməni mətbuatında Avinyanın baş nazirin digər müavini Mher Qriqoryandan daha fəal olmasına dair xəbərlərin yayılması Paşinyanın narahatlığına səbəb olub. Qeyd edək ki, Avinyan həm də "Soros Fondu"nun Ermənistandakı əsas koordinatorlarından biri sayılır. Nikol Paşinyanın konstitusiya islahatı keçirmək qərarına gəlməsi də baş nazirin zəifləmiş hakimiyyətini möhkəmləndirmək niyyəti ilə izah edilir.



Ermənistanın "alternativ.am" nəşrində dərc olunan məqalədə də qeyd olunur ki, Avinyan məqsədinə çatmaq üçün Paşinyana təsir edə və Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyanın istefasına nail ola bilib: "Paşinyanın hakimiyyəti daxilində formalaşmış bütün komandalar onu çaşdırmağa qadirdir. Komandalararası bu mübarizədə ən təsirli əməliyyatı Ermənistan baş nazirinin müavini Tiqran Avinyanın komandası həyata keçirib. Onlar yaxşı hazırlanmış proqram vasitəsilə Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyanı hakim elitadan uzaqlaşdırıblar". Xəbərlərə görə, Avinyanın komandası bu məqsədlə xüsusi qərargah formalaşdırıb. Ermənistan baş naziri müavininin administrasiyasının rəhbəri Varaq Siseryan, "Məlumatlı Vətəndaşlar" ictimai təşkilatının sədri Daniel İoannisyan və İctimai TV-nin jurnalisti Mkrtiç Karapetyan bu qərargahın tərkibindədir. Başqa üzvlər də olub, lakin əsas şəxslər onlar olub: "Avinyanın anti-Vanetsyan qərargahı Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisinə qarşı KİV-ə də məlumatlar verib. Uzunmüddətli iş sayəsində nəhayət Avinyan Paşinyana təsir edə və Vanetsyanın istefasına nail ola bilib. Vanetsyanın istefası sübut edib ki, Paşinyana təsir edən Avinyan qərargahının sxemi işləyir və yaxın gələcəkdə başqa istiqamətdə işə başlayacağı istisna edilmir".

Ermənistanın "politik.am" nəşri yaranmış durumda baş nazirin vəziyyətinin çətin olduğunu vurğulayır: "Paşinyan çətin vəziyyətlə üz-üzədir, demək olar, yarım ildir ki, MTX direktoru və polis rəisi təyin edə bilmir. Əlbəttə ki, bu sistemlərdə kadr problemləri yoxdur və baş nazir istəsə, problemi çox tez həll edə bilər, amma bu vəzifələr uğrunda qızğın bir siyasi mübarizə olduğu üçün qərar vermək çətindir". Müəllif qeyd edir ki, Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyanın əhvalatı Paşinyan üçün yaxşı bir dərs olub. O, xüsusilə bu vəzifəyə heç bir nüfuzu olmayan və siyasətlə məşğul olmaq niyyəti olmayan bir şəxsi təyin etməli olduğunu yaxşı başa düşür. Paşinyan bu tələblərə əməl etməyi prioritet hesab edir. Amma əslində daha vacib bir məsələ var ki, Paşinyan fərqinə varmadıqda yenidən fakt qarşısında qala və bu dəfə hakimiyyəti itirə bilər. Problem ondadır ki, Paşinyan komandasındakı bir neçə nüfuzlu qrup baş nazirin məhz onların irəli sürdüyü namizədi MTX rəhbəri təyin etməsi üçün əllərindən gələni edir. Bu təkliflər, əlbəttə, "xoş arzularla" doludur, amma reallıq tamamilə fərqlidir. Paşinyanın komandası yaxşı bilir ki, artıq o, əvvəlki reytinqə sahib deyil. Vanetsyanın nümunəsinə yenidən qayıdaraq, MTX direktoru vəzifəsinin onlara sonsuz dərəcədə məlumat verəcəyini yaxşı bilirlər. Bu fürsət mütləq birmənalı şəkildə onların mövqelərini möhkəmləndirəcək. MTX-nin çoxlu qovluqları bu qruplara komanda daxilində onlara sadiq olacaqlarına vəd verən insanları toplamağı təmin edəcək. Bu fürsətlə, MTX direktoru vəzifəsini "ələ keçirən" komanda hakimiyyət içərisində çox tez bir zamanda diktə edə biləcək hala gələcək və vaxt gəldikdə, onlar tez bir zamanda sükanı ələ keçirə biləcəklər. Beləliklə, MTX rəisinin təyin edilməsi Paşinyanın siyasi gələcəyi üçün həlledici ola bilər. İndi Paşinyan hakimiyyətinin, media qalmaqalından başqa əllərində heç bir vasitə olmayan sələflərindən daha çox, öz komandası tərəfindən daha böyük təhlükə altında olduğu aydınlaşır. Bu prosesdə məhz Tiqran Avinyanın komandası xüsusilə seçilir. Belə vəziyyətdə qarşıdakı günlər ərzində Ermənistanda vəziyyətin daha da qarışması tamamilə gözlənilən sayılır.

***Nahid SALAYEV***

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində cari ildə proseslərin hansı istiqamətdə cərəyan edəcəyi indi xüsusi maraq doğuran proseslərdən biri olaraq qalmaqdadır.**

# 30 yanvar Cenevrə görüşü də nəticəsiz qurtarsa... Qarabağ müharibəsi bir neçə addım da yaxınlaşacaq...

Bu mənada, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Qarabağ münaqişəsinin həlli üzrə yanvarın 29-30-da İsveçrənin Cenevrə şəhərində keçirilməsi nəzərdə tutulan növbəti görüşü ətrafında da diqqət cəlb edən fikirlər səslənir. Məhz bu görüşdən sonra cari il ərzində münaqişənin həllinin hansı istiqamətdə gedəcəyi bir qədər də dəqiq bəlli olacaq.

Qeyd edək ki, belə bir görüşün olacağını Xarici İşlər Nazirliyinin sözçüsü Leyla Abdullayeva da təsdiqləyib: "Bildiyiniz kimi, nazir Elmar Məmmədyarov bir müddət öncə yanvarın sonunda Ermənistan xarici işlər naziri ilə görüşün keçiriləcəyini bildirmişdi. Bu xüsusda növbəti görüşlə bağlı yayılan məlumatı təsdiq edərək bildirmək istərdim ki, yanvarın 29-30-da Cenevrədə nazir Elmar Məmmədyarovun ATƏT-in Minsk Qrupunun həmsədrləri və erməni həmkarı Zöhrab Mnatsakanyanla görüşü keçiriləcək". Ekspertlər hesab edir ki, bu görüşdə müəyyən nəticələər əldə olunmasa, məsələnin hərbi həll ehtimalı kifayət qədər yüksək olacaq. Bunu erməni ekspert Kiro Manoyan da xüsusi vurğulayır və indiki vəziyyətin məhz İrəvanın mövqeyi üzündən yarandığını bildirir:"Dağlıq Qarabağ məsələsinin nizama salınması istiqamətində aparılan danışıqlarda Ermənistan hakimiyyətinin addımlarından aydın şəkildə məlum olur ki, hakimiyyət nə strategiya, nə də konsepsiyaya malikdir". Kiro Manoyanın sözlərinə görə, Nikol Paşinyan Qarabağ məsələsi ilə bağlı mütəmadi olaraq ziddiyətli bəyanatlar verir ki, bu da Ermənistanın beynəlxalq arenadakı mövqelərini zəiflədir. Nikol Paşinyanın belə mövqeyi elə bu günlərdə Qafanda keçirdiyi mətbuat konfransı zamanı da özünü göstərdi. Onun Dağlıq Qarabağ münaqişəsinə dair verdiyi açıqlamalar bu ölkədə yenidən məsələ ətrafında kəskin polemikaya səbəb olub. Xatırladaq ki, Paşinyan keçmiş hakimiyyətdən Qarabağ məsələsində ona "ağır irs qaldığını" deyib, Serj Sarkisyanın vaxtında danışıqlar predmeti olmuş həll modelindən sitatlar gətirib. Bildirib ki, keçmiş hakimiyyət danışıqlarda Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycanın nəzarətinə qaytarılmasını, sülhməramlıların yerləşdirilməsini və regionun hüquqi statusunun referendumda müəyyən edilməsini nəzərdə tutan sənədi müzakirə edib. Rus ekspert Stanislav Tarasov məsələ ilə bağlı bildirir:"O, canlı yayımda keçmiş prezident Serj Sarkisyanın hakimiyyəti dövründə danışıqlar masasına qoyulduğu iddia olunan bir dövri nəşrdə çap olunmuş hansısa sənəddən bir neçə hissə oxudu. Məzmun qısa şəkildə aşağıdakıdır: erməni tərəfi yeddi rayonu Azərbaycana verməli, Qarabağla Ermənistanı birləşdirən dəhlizi qorumalı idi. Bundan başqa, həmçinin memorandum, Qarabağın statusunun müəyyən edilməsi, sülhməramlıların yerləşdirilməsi ilə bağlı bütün mümkün variantlar barəsində danışılır. Eyni zamanda, Paşinyan bunu Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın Qarabağ problemi barədə ona buraxdığı irs kimi müəyyənləşdirir. O, həmçinin qeyd edib ki, ölkə rəhbəri kimi fəaliyyət göstərəndə ona bu nöqtələrdən danışıqlara başlamaq təklif olunub". Onun sözlərinə görə, birincisi, Ermənistan rəhbərinin statusu Paşinyanı məcbur edir ki, o, ciddi bəyanatlar verərkən "kar bağlantılar" istifadə etməsin, xüsusilə də bunlar mətbuata edilirsə:"İkincisi, onun bildirdiyi tezislər prezident Sarkisyanın siyasi irsi hesab olunmur. Bunlar münaqişə tərəflərinin indiyə qədər danışıqlar prosesi üçün əsas kimi istifadə etdikləri "Madrid prinsipləri"nin məzmununa tam uyğundur". Tarasov bildirir ki, Paşinyanın məsələyə fərqli prizmadan yanaşmaq cəhdləri müharibəni körükləyən faktor kimi çıxış edir. Qeyd edək ki, Paşinyanın Qafanda keçmiş hakimiyyəti qınayan çıxışına Serj Sarkisyanın Respublika Partiyasından da reaksiya veriblər. Partiyanın adından danışanlar Paşinyanı qorxaqlıqda, Qarabağ məsələsinə dair axmaq bəyanatlar verməkdə ittiham ediblər. Partiyanın mətbuat katibi, keçmiş vitse-spiker Eduard Şarmazanov bildirib ki, Paşinyan həmin çıxışı ilə Dağlıq Qarabağda "prezidentliyə namizədləri" pis vəziyyətdə qoyur: "O, onlara müraciət edib deyir: mövqeyinizi bildirin. Bağışla, amma indi də mən sənə sual verirəm. Bəs sən özün Qarabağ məsələsində hansı mövqeyin sahibisən? Kimsə Paşinyandan hansısa mövqe eşidib? Baş nazir Paşinyanın, mənim hətta ona baş nazir deməyə də dilim gəlmir, həmin vəzifəni tutan adamın dağıtmaqdan başqa heç bir konsepsiyası yoxdur. O, klassik olaraq ətrafındakı hər şeyi dağıdır". Respublika partiyasının sədr müavini Armen Aşotyan isə bildirib ki, Paşinyan əlinin altında olan sənədlər paketinə istinad etməkdənsə, qorxusundan mediada dərc edilmiş məqalələrə istinad edir. Əslində isə, Qarabağa dair danışıqların bütün stenoqramı, yazışmaları onun əlindədir.



**Aşotyan Paşinyana bir neçə sual da ünvanlayıb. Məsələn, o sual edir: Ermənistanda indiyədək heç olmasa bir lider belə olubmu ki, münaqişənin qarşılıqlı güzəştlər hesabına həll edilməli olduğunu deməsin? Yaxud Paşinyan özü danışıqları hansı sənəd əsasında aparır? Aşotyan bildirib ki, Paşinyan bəzi çevrələrdə "danışıqlar zamanı axmaq davranışlarını ört-basdır etmək üçün hərdən özünü dəliliyə vurmağa məcbur olduğunu" etiraf edib: "İndi sən kimi dəli yerinə qoyursan? Bizi, yoxsa özünü, bəlkə xalqı?".**

***Tahir TAĞIYEV***

# Paşinyanla Sarkisyanın partiyası "Qarabağ siyasətindən qalmış miras" üstündə bir-birini qırmağa başlayıb

**Ermənistanın Baş naziri Nikol Paşinyanın ötən həftəsonu Qafanda keçirdiyi mətbuat konfransı zamanı Dağlıq Qarabağ münaqişəsinə dair verdiyi açıqlamalar bu ölkədə yenidən məsələ ətrafında kəskin polemikaya səbəb olub.**

Xəbər verildiyi kimi, Paşinyan keçmiş hakimiyyətdən Qarabağ məsələsində ona "ağır irs qaldığını" deyib, Serj Sarkisyanın vaxtında danışıqlar predmeti olmuş həll modelindən sitatlar gətirib. Deyib ki, keçmiş hakimiyyət danışıqlarda Dağlıq Qarabağ ətrafındakı rayonların Azərbaycanın nəzarətinə qaytarılmasını, sülhməramlıların yerləşdirilməsini və regionun hüquqi statusunun referendumda müəyyən edilməsini nəzərdə tutan sənədi müzakirə edib. Qeyd edək ki, Paşinyanın bu açıqlamasına ən sərt cavabı Serj Sarkisyanın rəhbəri olduğu Respublikaçılar Partiyasının funksionerləri veriblər. Erməni KİV-ində onların çox kəskin münasibətləri dərc edilib. Eyni zamanda, həmin partiyanın rəhbərliyində təmsil olunan şəxslər Paşinyanı diletantlıqda günahlandırıblar. Ona qarşı səslənən ittihamlarda bildirilir ki, şəxsən Paşinyanın özünün Dağlıq Qarabağ probleminin həlli ilə bağlı heç bir konsepsiyası yoxdur. Hətta ona çağırış da ediblər ki, belə bir konsepsiyası varsa, qoysun ortaya.

Paşinyana ünvanlanan ittihamlar sırasında belə bir fikir də var ki, Ermənistana rəhbərlik etmiş şəxslərin hamısı münaqişənin həllinin qarşılıqlı güzəştlər hesabına mümkün olduğunu vurğulayıblar. Sosial şəbəkələrin Ermənistan seqmentində bu mövzuda çoxlu sayda polemika aparılır. Ermənistanın ciddi sayılan siyasətçiləri Paşinyanı hətta psixoloji vəziyyəti yerində olmayan adlandırırlar. Respublikaçılar Partiyasının rəhbərliyi hətta qeyd edir ki, yaxşı olar Paşinyan danışıqlara getdiyi və daim əlinin altında olan sənədlərə istinad etsin. Görünür, Paşinyan bunu etməkdən daha çox populist kimi görünməyi üstün tutur və nəticədə elə öz ölkəsinin daxilində belə biabırçı qınaqlara tuş gəlir. Bununla yanaşı, həm də sübut etmiş olur ki, ondan münaqişənin həlli ilə bağlı hər hansı bir konstruktiv təklif gözləməyə dəyməz.



*Məhəmmədəli* **QƏRİBLİ**

# Səudiyyədə Qurana 300-dən çox dəyişiklik edilib - Azərbaycan ilahiyyatçılarının fikri...

**Bir sıra internet saytlarında, eləcə də sosial şəbəkələrdə Səudiyyə Ərəbistanının kral ailəsinin müqəddəs Qurani-Kərimin 300-ə yaxın ayəsini dəyişdirdiyi barədə məlumatlar yayılıb. İddialara görə, kral ailəsinə yaxın olan akademiyanın ivrit dilinə tərcümə etdiyi Qurandan hətta Məhəmməd Peyğəmbərin adı belə çıxarılıb. Kral ailəsinin göstərişi ilə 300-ə yaxın Quran ayəsinin dəyişdirilməsi müsəlman aləmində birmənalı qarşılanmayıb.**

***İsmayıl Əhməd:*** *"Bununla bağlı hər hansı bir fakt yoxdur"*

***Hacı Nizami Rza:*** *"Səudiyyə Ərəbistanının kral ailəsi belə bir addım atıbsa..."*

***Hacı Təyyar Hüseynli:*** *"Quran ayələrini dəyişdirmək mümkün deyil"*

İlahiyyatçılar hesab edirlər ki, Tanrı tərəfindən yer üzünə göndərilən 4 səmavi kitabdan yalnız Quran olduğu kimi insanlara çatdırılıb, İncil və Tövrat isə zaman-zaman ya tərcüməçilər, ya da dövrün hakimləri, din xadimləri tərəfindən təhrif edilib, demək olar ki, bu kitablarda çox şey dəyişdirilib.

Quranın mükəmməlliyinə diqqət çəkən ilahiyyatçıların sözlərinə görə, heç bir müsəlman dövləti Quran ayələrini dəyişdirməməlidir. Bu arada bəziləri iddia edirlər ki, hətta Quran Azərbaycan və müasir Türkiyə türkcəsinə tərcümə edilərkən də bəzi təhriflərə yol verilib.

Səudiyyə Ərəbistanının kral ailəsinin müqəddəs Qurani-Kərimin 300-ə yaxın ayəsini dəyişdirdiyinə dair məlumatlara münasibət bildirən ilahiyyatçıların bir qismi hesab edir ki, yayılan məlumat yalandır. Bu fikirdə olanların qənaəti belədir ki, deyilənlər həqiqət olsaydı, onda gərək orijinal variantla dəyişdirilən ayələr birgə yayılsın və müsəlman ictimaiyyəti buna öz etirazını bildirsin.

Tanınmış ilahiyyatçı İsmayıl Əhməd hesab edir ki, kral ailəsinin Quran ayələrini dəyişdirməsinə dair xəbərlər həqiqətə oxşamır və bu bəzi saytların uydurmasıdır: "Bəzi saytlar Səud dövlətinin Quranı dəyişdirməsinə dair xəbərlər yayırlar. Bununla bağlı hər hansı bir fakt yoxdur və belə bir hadisə baş versəydi, bu barədə dərhal İran və Türkiyənin rəsmi saytları məlumatlar, bəyanatlar yayardılar.

Bu bəzi peşəsindən xəbərsizlərin yaydığı məlumatdır. Ey peşəsindən xəbəri olmayan həvəskarlar, Quran barədə xəbər sizin üçün hansısa üzdəniraq şou əhlinin rədd olub ölkədən getməsi, kiminsə yenidən ata olması kimi olmamalıdır. Əvvəla xəbər yayırsansa, zəhmət çək bunu əsaslandır. Həm orijinal, həm də təhrif olunmuş mətndən misal gətir. Bunu edə bilirsən et, edə bilmirsənsə, heç olmasa, savadlı din mütəxəssislərinə müraciət et".



Digər tanınmış ilahiyyatçı Hacı Nizami Rzanın fikrincə isə Səudiyyə Ərəbistanının kral ailəsi Quran ayələrini dəyişdiribsə, bu mənfi bir haldır: "Mən bu barədə mətbuatdan xəbər tutmuşam və hansı ayələrin dəyişdirildiyindən xəbərim yoxdur. Amma kral ailəsi, iddia edildiyi kimi, Quranın ayələrini dəyişdiribsə və adı 4 dəfə Məhəmməd, bir dəfə Əhməd kimi keçən Rəsulallahın adını bu ayələrdən çıxarıbsa, İslam dünyasında çox qəzəblə qarşılanan bir hadisədir. Açığını deyim ki, son dövrlər bəzi mətbuat orqanlarında yalan, iftira dolu, saxta informasiyalar çox yayıldığı üçün, haradasa bu hadisənin baş verdiyinə inanmaq istəməzdim. Lakin kral ailəsindən olan bir şahzadənin amerikalılara dediyi "siz dediniz, biz də vəhhabi təriqətinin Səudiyyə Ərəbistanında yayılmasını təşkil etdik" sözlərindən sonra məndə belə bir şübhə yaranıb ki, deyəsən yazılanlar doğrudur. Mən də bir müsəlman, Quran əhli olaraq, Səudiyyə Ərəbistanının kral ailəsi belə bir addım atıbsa, onların əməlini pisləyirəm. Qadir Allah Quranın mətninə bilərəkdən, ya bilməyərəkdən əl gəzdirənləri bağışlamaz".

Digər tanınmış ilahiyyatçı Hacı Təyyar Hüseynlinin sözlərinə görə, Quran olduqca mütərəqqi bir kitabdır. Bu kitabın başqa müqəddəs kitablardan fərqliliyi əsasən ondadır ki, əsrlər boyu kimlərsə onu dəyişdirməyə cəhdlər etsə də, buna müvəffəq ola bilməyiblər. "Bu artıq reallıqdır.

Dünyanın hər yerində olan və müxtəlif dillərə tərcümə edilən Quran nə aktuallığını itirib, nə də onu dəyişdirmək mümkün olub. İndi kimsə, hansısa bir alimsə kimlərinsə marağına görə bu işi görübsə, bu mümkünsüzdür. Quran ayələrini dəyişdirmək mümkün deyil. Çünki dünya əhalisi Quranla tanışdır və onun toxunulmaz olduğunu bilir. Quran ayələrini dəyişmək, improvizə etmək, ona əlavələr etmək heç bir nəticə verməz. İnanmıram ki, kimlərsə buna nail ola bilər. 610-cu ildən 633-cü ilə qədər bu kitab informasiya xarakterli olub və əsrləri keçib gəlib.

Qurana tarixdə müdaxilə etmək istəyən qüvvələr keçmiş zamanlarda daha çox olub, amma onlar bu saflıq, müqəddəslik külliyyatına heç nə edə bilməyiblər" - deyə o qeyd etdi.

*İradə SARIYEVA*

**Neft hasilatı ilə məşğul olan ölkələr üçün bu məhsulun qiyməti ətrafında cərəyan edən hadisələr daim xüsusi diqqət mərkəzində yer alıb. Azərbaycan üçün də proseslərin inkişafı maraqlıdır. Çünki cari ildə də ölkənin gəlirlərinin müəyyən bir hissəsi məhz neft ixracı hesabına formalaşacaq.**

# Azərbaycanın neft qiyməti siyasətinə dünya miqyaslı pozitiv reaksiyalar Davosdan sonra yeni mərhələdə...



Belə ki, 2020-ci ildə Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) təkcə Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar bloku üzrə mənfəət neftinin satışından 5 milyard 382,15 milyon ABŞ dolları vəsait daxil olması proqnozlaşdırılır. Qeyd olunan yataq üzrə mənfəət neftinin həcmi 99,35 milyon barrel həcmində qiymətləndirilir. Ümumilikdə, Hasilatın Pay Bölgüsü sazişləri üzrə 2020-ci ildə mənfəət neftinin və qazın satışı üzrə fondun daxilolmalarının 6 milyard 213,8 milyon dollar olması proqnozlaşdırılır. Bu il "Şahdəniz" yatağı üzrə mənfəət qazının satışından fonda 709,15 milyon dollar daxil olması proqnozlaşdırılır. Bütün bunlar o deməkdir ki, neft və qazın dünya qiymətləri Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir. Proseslərin gedişi göstərir ki, qeyd olunan xüsusda Azərbaycanın təşəbbüsü ilə yaranan OPEC+ formatı artıq xüsusi rol oynayır. Xatırladaq ki, beş il bundan əvvəl Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda OPEC-ə üzv ölkələrin və OPEC üzvü olmayan neft istehsalçılarının bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış etmişdi. Elə builki Davos Forumunda OPEC baş katibi Məhəmməd Barkindo da OPEC+ formatında əməkdaşlığın əsasının məhz Azərbaycan prezidentinin çağırışı sayəsində qoyulduğunu minnətdarlıq hissi ilə xatırlatdı:"Beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdi. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz. Sizin uzaqgörən rəhbərliyiniz, çağırışınız nəticəsində biz işləməyə başladıq. Biz 2016-cı il dekabrın 10-da, 12 ay müddətində əməkdaşlıq bəyannaməsini 24 ölkə ilə imzaladıq. Tarixdə ilk dəfə idi bu baş verirdi. Sizin rəhbərliyiniz, sizin baxışınız sayəsində biz bunu etdik".

Xatırladaq ki, İlham Əliyev Dünya İqtisadi Forumu çərçivəsində Davosda Rusiyanın "Rossiya-24" televiziya kanalına müsahibəsində bu xüsusda maraqlı fikirlər səsləndirib. Öncə dövlət başçısı qeyd edib ki, qiymətlərin bugünkü səviyyəsi həm istehsalçıları, həm də istehlakçıları qane edir:"Azərbaycana gəldikdə, bu il bizim büdcəmizdə neftin bir barrelinin qiyməti 55 dollar nəzərdə tutulub. Lakin indi qiymət xeyli yüksəkdir. Buna görə də düşünürəm ki, hər hansı fors-major vəziyyət yaranmasa, qiymət 55-65 dollar diapazonunda qalacaq. Üstəlik, OPEC+ formatı çox səmərəlidir və Azərbaycan bu formatın işində fəal iştirak edir. Biz öz üzərimizə götürdüyümüz öhdəliklərlə əlaqədar hasilatı azaldırıq və mahiyyət etibarilə bu gün OPEC-ə daxil olmayan ölkələr də özlərini OPEC üzvləri kimi aparırlar. Buna görə də OPEC+ çoxtərəfli əməkdaşlığın olduqca uğurlu formatıdır və bizim fikrimizcə, mahiyyət etibarilə bu gün neftin qiymətinin ədalətli olduğunu müəyyənləşdirib".

Bundan əlavə, dövlət başçısı OPEC+ sazişinin müddətini uzatmağın zəruriliyinə də diqqət çəkib: "Əlbəttə, bu məsələ ən yaxın vaxtlarda müzakirə ediləcək. Lakin hesab edirəm ki, konkret nəticələr gördüyümüzü nəzərə alaraq bunun müddətinin uzadılması, əlbəttə, məqsədəuyğundur. Çünki müddət uzadılmasa, bazarın necə reaksiya verəcəyini bilmirik, yenidən müxtəlif spekulyativ meyllər yarana bilər. Buna görə hesab edirəm ki, müddətin uzadılmasının əhəmiyyəti var".

Ekspertlər də bildirir ki, Azərbaycanın məsələyə yanaşması kifayət qədər düzgündür. Düzdür, ölkəmizin gündəlik neft hasilatı heç 1 milyon barrel səviyyəsində deyil, lakin qlobal neft bazarında yaranan mənfi situasiyalar, balansın pozulması kimi vəziyyətlərdə Azərbaycan hər zaman proseslərə dərhal reaksiya verir. Bu mənada, digər hasilatçılar da OPEC+ formatının uzanmasında maraqlıdır. OPEC üzvü olmayan böyük istehsalçılar və OPEC üzvləri arasında istehsalın azaldılması barədə razılıq, əlaqələndirmə indiki halda qarşılıqlı etibarı artırır.

Hazırda neft bazarında müəyyən sabitlik yaranıb, OPEC və qeyri-OPEC ölkələrinin yaratdığı koalisiyanın birgə səyləri nəticəsində isə "qara qızıl"ın qiyməti 60-65 dollar ətrafında dəyişir. Bazarda tələb-təklif tarazlığı pozulan zaman isə Azərbaycanın da daxil olduğu OPEC+ ölkələri buna dərhal reaksiya göstərir. Bu da o deməkdir ki, indi Azərbaycan qlobal enerji bazarının mühüm aktorlarından biridir. Məhz Azərbaycanın qlobal enerji bazarı ilə bağlı uzaqgörən ideyaları dünyanın 14 nəhəng neft istehsalçısını bir araya toplayan OPEC, eləcə də digər neft hasilatçıları üçün də yol xəritəsi rolunu oynayır.

*Ramil QULİYEV*

**Azərbaycanda artan qaz hasilatı cari ildə ölkənin ixrac həcminin artması ilə yanaşı, ümumi daxili məhsul istehsalının əhəmiyyətli dərəcədə yüksəlməsinə də rəvac verəcək. Bunu məhşur "S&P Global Ratings" beynəlxalq reytinq agentliyi də təsdiqləyir.**

# Azərbaycanda adambaşına 4900 dollar qazancımız olacaq - qaz strategiyasının bəhrəsi artır...



Yeri gəlmişkən qeyd edək ki, "S&P Global Ratings" 2023-cü ilin sonunadək Azərbaycanda orta iqtisadi artımın 2,5 faizədək olacağı qənaətindədir. İqtisadi artım bu yaxınlardakı vergitutma tədbirləri sayəsində istehlak səviyyəsinin bərpa olunması, 2018-ci ilin iyul ayında "Şahdəniz-2" layihəsinin icrasına başlaması, nəticədə ölkə təbii qazının Türkiyəyə ixracı ilə dəstəklənəcək: "Bütün ehtiyatlar işə salınanadək yaxın 4-5 il ərzində qaz ixracatının getdikcə artacağını, bunun da iqtisadi artıma müsbət təsir göstərəcəyini gözləyirik. 2020-ci ildə Azərbaycanda neft hasilatının, təqribən 3 faiz, yəni gündəlik 733 min barrelədək azalacağını, lakin bizim proqnoz əhatəmiz çərçivəsində 771 min barrel səviyyəsində sabitləşəcəyini gözləyirik. Çünki "Şahdəniz-2" və "Abşeron" bloklarındakı hasilat artacaq".

Proqnozlara görə, 2020-ci ildə ölkədə ÜDM-nin gerçək artımı 1,7 faiz, 2021-ci ildə 3,2 faiz, 2022-2023-cü illər ərzində isə ildə 2,2 faiz olacaq. ÜDM-in nominal məbləği müvafiq olaraq 78 milyard, 79 milyard, 82 milyard, 85 milyard manat, adambaşı məbləği isə 2020-2021-ci illərdə 4600 dollar, 2022-ci ildə 4700 dollar, 2023-cü ildə4900 dollar səviyyəsində gözlənilir. Ölkə iqtisadiyyatına sərmayə qoyuluşu 2020-ci ildə ÜDM-in 19,6, 2021-ci ildə 18,7, 2022-ci ildə 18,4, 2023-cü ildə 18,2 faizi səviyyəsində, ixracatın artımı isə gerçək şəkildə müvafiq olaraq 0,3%, 3,8%, 2,6% və 1,5% olacaq.

Digər araşdırma institutları da eyni mövqedən çıxış edir. Bunun əsas səbəbi cari ilin yarısında "Transadriatik" (TAP) boru kəmərinin işə düşməsidir. Xatırladaq ki, Azərbaycan təbii qazını Avropaya çatdıracaq bu boru kəməri layihəsi üzrə işlərin 91 faizi yekunlaşıb.TAP-ın quru hissəsində, Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların hamısı torpağa basdırılıb. Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Yunanıstanda, digəri isə Albaniyada olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşası tamamlanıb. Ötən ilin noyabrında TAP-ın Yunanıstan hissəsində sınaq məqsədilə qaz nəqlinə başlanıb. Belə ki, Yunanıstanda-kı Evros çayı ilə Kipoidəki kompressor stansiyası arasında boru kəmərinin 2 kilometrlik hissəsinə təbii qaz qəbul edilib. Bu, boru kəmərinin istismara verilməsi prosesinin ilkin mərhələsidir. Həmin prosesin məqsədi boru kəməri infrastrukturunun tamamilə təhlükəsizliyini və işlər başa çatdıqdan sonra istismara hazır olmasını, eləcə də milli və beynəlxalq təhlükəsizlik, həmçinin istismar standartlarına uyğun olmasını təmin etməkdir. Təbii qazın boru kəməri sisteminə daxil edilməsi "Şahdəniz-2" qazının Avropaya tədarükünün başlanğıcı üzrə növbəti mərhələdir. TAP vasitəsilə ticari məqsədlə qaz nəqli bu ilin yarısında, yəni İtaliyaya qədər olan hissənin tam istifadəyə veriləcəyi və sınaqdan keçiriləcəyi vaxtda gözlənilir. İlk mərhələ istifadəyə verildikdən sonra təbii qaz tədricən boru kəmərinin Yunanıstan marşrutunun digər hissələrinə, eləcə də Albaniya və İtaliyaya mərhələli şəkildə nəql edilməyə başlanacaq. TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır. Xatırladaq ki, TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. TAP son mərhələdə "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır.

Baş verənləri şərh edən "Eurusian Strategic Consulting Gmbh" şirkətinin direktoru Vladimir Kotenev da artan qaz ixracının Azərbaycan üçün əlavə imkanlar yaratdığını bildirir: "Azərbaycan özü qaz ixrac etməklə yanaşı, digər ölkələrin, ilk növbədə türkmən qazını da Avropaya yeni marşrutla çatdıra bilər. Türkmənistan, bildiyimiz kimi, böyük qaz ehtiyatlarına malikdir. Lakin son illər Azərbaycan qaz hasil edən qabaqcıl ölkələrdən birinə çevrilib. Bu səbəbdən də regionun qaz istifadəçiləri bir-biri ilə danışmalıdır. Azərbaycan Xəzər regionunun ən varlı ölkələrindəndir. Onun əsas sərvəti neftdir. Buna görə də Avropada Azərbaycana əhəmiyyətli tərəfdaş kimi baxırlar.

Son illər Azərbaycan özünün qaz sənayesini də uğurla inkişaf etdirməkdədir. Bu gün Azərbaycanın artıq özünün mütəxəssisləri var. Beləliklə, Azərbaycan bu gün öz təcrübəsini digər ölkələrə ötürə bilər. Hesab edirəm ki, bu gün Azərbaycanın Rusiya və ümumiyyətlə regionun digər ölkələri ilə əməkdaşlığı uğurla inkişaf edir".

*Ramil QULİYEV*

**Azərbaycanda kredit faizlərinin göstəricisi daim narazılıq yaradan əsas predmetlərdən biri olub. Bu fonda cari il ərzində hökumətin xüsusi diqqət mərkəzində yer alacaq məsələlərdən biri məhz kreditlərin faiz dərəcələrinin aşağı salınması ilə bağlıdır.**

# Bu il bankların təzə problemi yarana bilər - depozitləri və faizləri qaytara bilməmək...

*Bank kreditlərinin ucuzlaşdırılması istiqamətində növbəti mühüm addım...*




Bunun üçün Mərkəzi Bank artıq son illər ərzində uçot dərəcəsini fəal şəkildə aşağı salır.

Xatırladaq ki, 2019-cu ildə Mərkəzi Bankın İdarə Heyətinin 8 dəfə iclası keçirilib və nəticədə uçot dərəcəsi 2 dəfə endirələrək 7,5 faizə salınıb. Bu arada yayılan məlumata əsasən, yanvarın 31-də Mərkəzi Bankın 2020-ci ildə pul siyasətinə həsr olunan ilk iclası keçiriləcək. İclasda faiz dəhlizinin parametrlərinə dair qərarlar veriləcək. Faiz qərarı həmin gün ictimaiyyətə açıqlanacaq. İllik inflyasiya Mərkəzi Bankın hədəf diapazonunda orta hesabla 4 faiz qaldığından, yanvarın 31-də də faiz endirəcəyi ehtimalı yüksəkdir. Bu dəfə də 0,25 baza bəndi azaltma olarsa, uçot dərəcəsi 7.25%-ə düşəcək. Bəzi ekspertlərə görə, Mərkəzi Bank daha yüksək nisbətdə, yəni 0,5 baza bəndi də faiz endiriminə gedə bilər. Bütün bunlar, öz növbəsində, kredit faizlərini aşağı salmalıdır. Bir daha xatırladaq ki, nəzəriyyəyə görə, uçot dərəcəsi pulun dəyəri rolunu oynayır. Pula olan tələb də faiz dərəcəsindən asılı olaraq dəyişir. Məsələn, faiz dərəcələri azaldığı zaman kreditlərə tələb artır, insanların banklara əmanət qoymaq meyli isə azalır. Bu zaman iqtisadi subyektlər daha çox kredit almağa meyl göstərir, əllərində olan nağd pulu isə, banklarda aşağı faizlərlə saxlamaqdansa, xərcləməyə çalışırlar. Nəticədə məcmu tələb artır ki, bu da həm iqtisadi artıma və məşğulluğa, həm də inflyasiyaya artırıcı təsir göstərir. Faiz dərəcələri artdıqda isə kreditlərə tələb azalır, insanların banklara əmanət qoymaq meyli güclənir. Nəticədə iqtisadi subyektlər daha az kredit alır və qazandıqları pulun çox hissəsini xərcləməyərək yığıma yönəldirlər. Beləliklə də məcmu tələb daralır və inflyasiyanın azalması üçün şərait yaranır. Amma indiki halda Azərbaycan üçün iqtisadi fəallığın daha da artırılması vacibdir və bu səbəbdən baş bankın uçot dərəcəsini azaltması gözlənir.

Digər tərəfdən, uçot dərəcəsi azaldığından əhali üçün banklarda əmanət saxlamaq cəlbedici deyil. Bank əmanətləri üzrə faizlərin aşağı endirildiyi bir vəziyyətdə əhalinin altenativ olaraq vəsaitlərini geri çəkib aktiv investisiya etmələri də gözləniləndir. Bunu iqtisadçı ekspert Samir Əliyev də istisna etmir: "Uçot dərəcələri aşağı salınan kimi bankın əmanətə marağı azalır. O aşağı salınanda əhali kreditlərə üz tutur. Əmanət faizi aşağı düşdükcə, bu, kredit faizinə də öz təsirini göstərir.

Bu gün Azərbaycanda əsas problem əmanətlərlə bağlıdır. Azərbaycanda keçən ildən başlayaraq depozit bazarında müəyyən çətinliklər yaşanır. Bu proses bu il də davam edəcək. Bu narahatlıq onunla bağlıdır ki, ötən il dekabrın 1-nə olan məlumata görə, bank sektorunun kredit qoyuluşlarının həcmi 15 milyarddan bir qədər çoxdur, depozitlərin həcmi isə təxminən 23,6 milyard manatdır. Təsəvvür edin, 23,6 milyard manatlıq depozit banka otuzdurulub, bank bundan cəmi 15 milyard kredit verib. Ortada hardasa 8 milyarda yaxın vəsait var. Bankların bu vəsaiti qaytarmaq öhdəliyi var. Düzdür, elə depozitlər var ki, onlar 1-2%-lə yerləşdirilib. Amma müddətli depozitlər 6 ay və ya 1-2 il müddətinə 10%-lə banka qoyulur. Tələb olunan isə odur ki, sən istədiyin vaxt o depoziti bankdan çıxarda bilərsən. Ona görə də onların faizi çox aşağı, yəni 1-2% olur. Bunları da nəzərə alsaq, hazırda bankların qaytarmalı olduğu böyük bir həcmdə vəsait var. Bu vəsaiti qaytarmaq üçün bank onunla pul qazanmalıdır. Bank insanlara kredit verməlidir ki, o kreditdən həm gəlir əldə etsin, həm də əhalinin faizlərini qaytarsın. Bank həmin krediti verməyib və faizi də qaytarmalı olduğu halda bəzən qaytara bilmir. Ona görə də düşünürəm ki, bu il depozit bazarında bankların öhdəliklərini yerinə yetirməsi ilə bağlı çətinlik ola bilər. Nəticədə ölkədə əmanətlərin faizlərinin düşməsi müşahidə olunacaq. Hazırda da bu tendensiya müşahidə olunmaqdadır". Ekspert yaranmış durumda qiymətli kağızlar bazarının inkişafının da vacib sayır:"Bizdə qiymətli kağızlar bazarı inkişaf etməyib ki, əhali qiymətli kağızlar bazarına vəsait yatırsın. Ona görə də bizdə alternativ mexanizmlər işləmir. Biznesdə insanlar ya aktiv iştirak etməlidir, ya da passiv. Aktiv iştirak odur ki, şəxs özü pul qoyub biznesə başlayır.

Passiv iştirak isə odur ki, insanlar hər hansı bir şirkətin səhmlərini alır. Bizdə əhali bunların heç birinə çox da maraq göstərmir. Əhalinin bank əmanətlərinə marağı azaldığı təqdirdə alternativ seçimlərdən biri də daşınmaz əmlakdır. Daşınmaz əmlak bir qədər likvidlik olmayan bazar sayılır. Digər alternativ seçim isə qızıldır. Qızılın da qiyməti bazarda tez-tez dəyişir". İstənilən halda, cari ildə əhalinin bank əmanətlərinin müəyyən hissəsini geri çəkərək fərqli sektorlara sərmayə kimi yatırması gözlənir. Bu isə iqtisadi fəallığa təsir edən əsas faktorlardan sayılır.

***Tahir TAĞIYEV***

**Ötən il Azərbaycana gələn turistlərin sayı artıb. Belə ki, 2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən 3 milyon 170,4 min və ya əvvəlki illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.**

# Ötən il Avropadan Azərbaycana gəlmiş turistlərin sayında xeyli artım olub - yeni təzahürün səbəbləri...

***Çingiz İsmayılov:*** *"Bir sıra amillərin üst-üstə düşməsi belə əlverişli vəziyyətin yaranmasına gətirib çıxarır"*



Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 22,9 faizi Gürcüstan, 10,0 faizi Türkiyə, 8,1 faizi İran, 3,4 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, 1,9 faizi Ukrayna, hər birindən 1,6 faiz olmaqla Türkmənistan və İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan, Pakistan və İsrail, 1,2 faizi Böyük Britaniya, 11,0 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olub. Gələnlərin 66,6 faizini kişilər, 33,4 faizini isə qadınlar təşkil edib.

Ölkəmizə 2019-cu ildə gələnlərin sayında daha çox artım Türkmənistan (84,2 faiz), Hindistan (66,8 faiz), Çin (62,4 faiz), Misir (55,6 faiz), Malayziya (54,9 faiz) vətəndaşları arasında qeydə alınıb.

MDB ölkələrindən gələnlərin sayı 9,3 faiz artaraq 1141,5 min nəfər, Körfəz ölkələrindən gələnlərin sayı isə əvvəlki illə müqayisədə 0,9 faiz azalaraq 549,0 min nəfər olub.

Diqqətçəkən məqamlardan biri də Avropa İttifaqı ölkələrindən gələnlərin sayında ciddi artım olmasıdır. Adətən, sözügedən ölkələrdən gələnlərin sayı elə də çox olmurdu. Ancaq ötən il Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 21,3 faiz artaraq 136,5 min nəfər təşkil edib. Bu da müsbət göstərici hesab edilir. Çünki Aİ ölkələrindən gələn turistlər daha imkanlı olduğundan, getdikləri ölkədə daha çox vəsait xərcləyirlər. Bütün hallarda, Aİ ölkələrindən Azərbaycana gələn turistlərin sayının artması nəyin göstəricisidir?

Məsələyə münasibət bildirən turizm sahəsi üzrə ekspert Çingiz İsmayılov Aİ ölkələrindən Azərbaycana turist axınının artmasını bir sıra amillərlə əlaqələndirdi: "Bunun müxtəlif səbəbləri var. Əvvəla Azərbaycan Avropada müxtəlif turizm sərgilərində iştirak edir. Həmin sərgilərdə ölkə barədə təbliğat aparılır. Məhbəx sərgiləri keçirilir və bu, oradakı vətəndaşların diqqətini cəlb edir. Siyasi tədbirlərdə Prezident İlham Əliyev, bir sıra qurumların rəsmiləri çıxış edirlər. Bütün bunlar, nəticə etibarilə, Avropadakı turistlərin Azərbaycana marağını artırır. Deməyim odur ki, bunu bir səbəblə əlaqələndirmək olmaz. Bir sıra amillərin üst-üstə düşməsi belə əlverişli vəziyyətin yaranmasına gətirib çıxarır. Onu da nəzərə almaq lazımdır ki, Avropada hələlik Azərbaycan barədə tam təəssürat yoxdur. Ölkəmiz barədə tam təəssürat formalaşsa, o zaman Avropadan gələn turistlərin sayı qat-qat çox olacaq. Bu gün Gürcüstanla müqayisədə Avropadan Azərbaycana az turist gəlir. Bunun müxtəlif səbəbləri var. Gürcüstan coğrafi baxımdan Avropaya daha yaxındır, açıq dənizə çıxışı var və dini faktor da buna öz təsirini göstərir. Bütün bunlara baxmayaraq, Avropada Azərbaycan barəsində müxtəlif pozitiv məlumatların yayılması, ölkədə stabilliyin olması və digər amillər vəziyyəti xeyrimizə dəyişir.

*"Bu, həmin turistlərin daha çox vəsait xərcləməsi deməkdir ki, nəticədə Azərbaycanın iqtisadiyyatı bundan qazanacaq"*

**Hesab edirəm ki, Aİ ölkələrindən daha çox turistin gəlməsi iqtisadi baxımdan bizə sərfəlidir. Bu həmin turistlərin daha çox vəsait xərcləməsi deməkdir ki, nəticədə Azərbaycanın iqtisadiyyatı bundan qazanacaq. Ona görə də elə etməliyik ki, Avropa ölkələrindən gələn turistlərin sayı daha çox olsun".**

***Vidadi ORDAHALLI***

# "Golden World Travel" adlı turist şirkətinin də fırıldaqları açıldı

**Ölkədə fəaliyyət göstərən turizm şirkətləri yeni kampaniyalar adı altında vətəndaşları aldadırlar. Xüsusilə də xarici ölkələrə gediş-gəliş bileti alan sərnişinlərin hüquqları pozulur. Onlayn fəaliyyət göstərən turizm şirkətləri vətəndaşları müxtəlif xarici ölkələrə sərfəli şərtlərlə aparacağını vəd edərək onlardan müəyyən məbləğdə vəsait alaraq ortadan yox olurlar.**




## Elçin Rüstəmov: *"Bu hallar ölkədəki normal turizm şirkətlərinin də imicinə xələl gətirir"*

Belə şirkətlərdən biri də "Golden World Travel" dir. Bu şirkətdən onlayn qaydada turpaket alan Kəmalə Xəlilova adlı paytaxt sakininin Gürcüstanda istirahət etmək arzusu gerçək olmayıb. Belə ki. K.Xəlilova bildirir ki, o, rəfiqəsi ilə Gürcüstana getmək üçün "Golden World Travel" adlı turizm şirkətindən yanvar ayının 24-ü üçün turpaket alıblar. Ödənişi isə onlayn qaydada özünü turizm şirkətinin rəhbəri kimi təqdim edən Mustafayev Elmir Müşfiq oğlunun fərdi hesabına köçürüblər. Deyilən vaxtda ünvana gələn qadınlar nə avtobusu, nə də Gürcüstana gedənləri tapıblar.

Qeyd edək ki, bu kimi hallar dəfələrlə yaşanıb. Vətəndaş turizm şirkətindən istər onlayn, istərsə də fərdi qaydada turpaket alıb. Lakin istirahətə getmək istəyən şəxs son anda tam əks mənzərə ilə üzləşib.

Ekspertlər bildirirlər ki, alınan turpaketlər üçün ödənişlər fərdi hesablara deyil, turizm şirkətlərinin hesabına köçürülməlidir. Çünkü fərdi hesablara köçürülmə zamanı aldanma ehtimalı daha çox olur. Belə hallarla qarşılaşan vətəndaşlar hüquq-mühafizə orqanlarına və Dövlət Turizm Agentliyinə müraciət edə bilərlər.

Turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov bildirdi ki, yerli turistlərin aldadılması ilə bağlı kifayət qədər fakt var: "Müştəri şirkətdən hər hansı turu alır. Hava limanına gedəndə isə

*"Müştəri şirkətdən hər hansı turu alır, hava limanına gedəndə isə şəxs reysə buraxılmır, məlum olur ki..."*

şəxs reysə buraxılmır və ya turist xaricdə gözləmədiyi mənzərə ilə qarşılaşır. Sifariş edilən otelə müraciət edəndə bron edilmədiyi aşkar olunur. Bu tip hallarla çoxlu sayda vətəndaş rastlaşıb. Bəziləri üzləşdikləri problemi ictimailəşdirir, bəziləri isə heç nə olmamış kimi həyatlarına davam edirlər".

Ekspertin fikrincə, bu kimi hadisələrin sayının azalması üçün aidiyyəti qurumlar turizm şirkətlərinin fəaliyyətinə nəzarəti gücləndirməlidirlər. Turizm şirkətləri mülki məsuliyyət sığortasına cəlb olunarsa, bu sığorta vasitəsilə onların yerli və xarici turistlər qarşısında öhdəlikləri təmin ediləcək: "Vətəndaşlar əvvəlcə turpaket aldıqları şirkətləri internet üzərindən araşdırsınlar. Həmçinin, turizm şirkətlərilə sövdələşmələri rəsmi qaydada aparsınlar.

Onu da deyim ki, belə dələduz şirkətlər avqust ayında daha da artır. Onlar iyun və iyul aylarında fəaliyyət göstərərək müştərilərin etimadını qazanırlar. Sərfəli qiymətə xarici ölkələrdə beşulduzlu otellərdə dincəlmək təklif edirlər. Müştəri bilet aldıqdan sonra isə öyrənir ki, bilet, bütün sənədlər saxtadır. Nə təyyarə bileti var, nə də ki, onların adına xaricdə oteldə yer bron edilib.

Bu hallar ölkədəki normal turizm şirkətlərinin də imicinə xələl gətirir".

*Günel CƏLİLOVA*

# Tibbi sığortanın ilkin tətbiqi xəstəxanalardan həkim axını prosesi başlatdı - Ağsu xəstəxanasında nə baş verib...

**Məlum olduğu kimi, cari ilin əvvəlindən etibarən ölkəmizdə icbari tibbi sığorta tətbiq olunmağa başlayıb. İcbari tibbi sığorta ilk olaraq bölgələrdə tətbiq olunur. Ancaq icbari tibbi sığortanın tətbiqi bəzi bölgə xəstəxanalarında problem yaratmağa başlayıb.**

*"Hansı xəstəliklərin icbari sığortaya daxil olduğu, hansının daxil olmadığı açıqlanmalıdır"*

## Adil Qeybulla: *"İcbari tibbi sığorta ilə bağlı TƏBİB-in verdiyi zərf qənaətbəxş deyil"*



Belə ki, Ağsu Rayon Mərkəzi Xəstəxanasında, sözün əsl mənasında, xaos yaşanır. Tibbi sığorta qanunu ilə razılaşmayan həkimlər kütləvi surətdə dövlət xəstəxanasından çıxaraq özəl klinikalar açmağa başlayıblar. Hazırda xəstəxananın dəhlizlərində onlarla xəstə həkim gözləyir.

Ağsu rayon sakini Nurlan Mirkazımlı media nümayəndələrinə açıqlamasında bildirib ki, hazırda ağır vəziyyətdə olan anası xəstəxanada baxımsız vəziyyətdədir: "Anam ağır xəstədir, əməliyyat olunmalıdır. Yanvarın 27-si anamı əməliyyat üçün təcili olaraq xəstəxanaya apardıq. Saatlarla xəstəxananın dəhlizində gözləsək də, həkim tapa bilmirik. Xəstəxananın həkimlərinə zəng etsək də, heç biri telefonları açmır. Mən bununla bağlı Səhiyyə Nazirliyinin "qaynar xətt"inə zəng etdim, Səhiyyə Nazirliyi də mənim nömrəmi "qara siyahı"ya saldı. Hazırda xəstəxananın dəhlizlərində ağır vəziyyətdə olan xəstələr həkim gözləyirlər. Bu qədər özbaşınalıq olarmı?"

Məsələ ilə bağlı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə müraciət etdik. Lakin agentlikdən bizə cavab verən olmadı.

Professor, tibbi ekspert Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, icbari tibbi sığorta ilə bağlı TƏBİB-in verdiyi zərf qənaətbəxş deyil: "Burada aydın olmayan məqamlar var. Yaxşı olardı ki, buna aydınlıq gətirilsin, mütəmadi olaraq bununla bağlı maarifləndirmə işləri aparılmalıdır. Vətəndaş, ən azı, bilməlidir ki, onun hüquqları nədən ibarətdir. Burada xeyli qeyri-müəyyənlik var. İkinci məsələ ondan ibarətdir ki, həkimlərin fiksə olunmuş maaşları təyin olunmadan icbari tibbi sığortadan söhbət gedə bilməz. Daha çox xəstəyə baxmaqla məvacibin müəyyənləşməsi bunun subyektiv faktorlara yol açması deməkdir. Bu, peşəkarlığın qorunması baxımından da ziyanlıdır".

Həmsöhbətimiz hesab edir ki, ilk növbədə, həkimlərin fiksə olunmuş əməkhaqları təyin olunmalıdır, bundan sonra isə öz normativlərindən daha artıq xəstəyə baxan həkimlərin gəlirlərinə əlavə edilməlidir: "Dünya ölkələrində məsələlər bu cür həll olunur, bizdə də belə olmalıdır. İkinci tərəfdən isə bütün məsələlərin izahını orada tapmaq mümkün deyil.

Məsələn, bir vətəndaşın il ərzində xəstəxanaya neçə dəfə müraciət etmək hüququnun olması bilinmir. Kim nə vaxt istəsə xəstəxanaya gəlsə, xaos yaranar. Bundan başqa, hansı xəstəliklərin icbari sığortaya daxil olduğu, hansının daxil olmadığı göstərilməlidir. Bütün bunları tənzimləmək, növbəlilik sistemi yaratmaq lazımdır. Bu kimi məsələlər həll olunmadığı üçün, hazırda bölgə xəstəxanalarında xaos yaşanır. Burada nə həkimləri qınamaq lazımdır, nə də xəstələri".

*Günel CƏLİLOVA*

**Məlum olduğu kimi, Təhsil Nazirliyində 2020-2021-ci tədris ili üzrə şagirdlərin geyim formalarının təsvirlərini müəyyən edən layihəyə dair ictimai rəyin öyrənilməsinə başlanıb.**

# Təhsil naziri məktəbli formalarının bahalığına qarşı çıxdısa - kasıbların bəxti gətirəcək...

## *Bakı Tikiş Evi - Etibar Əzimov: "...əvvəlki geyimdən seçiləcək"*



Layihəyə görə, qızlar üçün yay geyim forması nın qısaqol köynək və ətəkdən, qış geyim formasının isə uzunqol köynək, ətək və önü zəncirbəndlə bağlanan cibli jaketdən ibarət olması nəzərdə tutulur. Oğlanlar üçün yay fəslində tətbiq edilən geyim forması qısaqol köynək və şalvardan, qış geyim forması isə uzunqol köynək, şalvar və önü zəncirbəndlə bağlanan cibli jaketdən ibarət olacaq.

Yeni məktəbli formaları ilə bağlı məlumat ictimaiyyətə təqdim olunduqdan sonra geyimlərin qiyməti müzakirə mövzusuna çevrilib. Yeni məktəbli formalarının satış qiymətinin hazırda geyinilən formadan daha baha olacağı haqqında məlumatlar yayılır.

Təhsil naziri Ceyhun Bayramov bir neçə gün öncə media nümayəndələrinə açıqlamasında qeyd edib ki, formaların satış qiymətləri ilə bağlı konkret bir rəqəm söyləniIə bilməz: "Çünki bu qiymət tələb və təklif əsasında formalaşır. Lakin formaların hazırlanmasında müəyyən standartlar var ki, biz buna nəzarət etməyə çalışırıq. Standartlara uyğun, keyfiyyətli məktəbli forması şagirdlərimiz üçün əlçatan olmalıdır".

Yeni məktəbli formalarının satış qiymətinin necə tənzimlənəcəyi barədə fikir bildirən Bakı Tikiş Evinin (BTE) satış şöbəsinin rəisi Etibar Əzimov qeyd etdi ki, yeni məktəbli formalarının hansı müəssisələrdə hazırlanacağı hələ bəlli deyil: "Hazırda bir neçə nümunədə məktəbli formalarının üzərində işləyirik. Bildiyiniz kimi, bazarda ən böyük müəssisə bizik və 10 ildir bu işlə məşğuluq. Hər il BTE-nin tikdiyi məktəbli formaları daha çox alınır. Həmçinin, BTE nişanı olan formalara cavabdehik və onların keyfiyyəti Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində yoxlanılaraq təsdiq edilir. Bununla yanaşı, əvvəlki məhsullarımız Avropa laboratoriyalarında da yoxlanılaraq sertifikat verilib".

*"Məktəbli formaları ilə bağlı nümunələr seçildikdən və təsdiqləndikdən sonra qiymətlər müəyyənləşəcək"*

Həmsöhbətimiz onu da əlavə etdi ki, qurumun hazırladığı məktəbli forması nümunələri nazirlikdə qəbul edilərsə, ötən illərdə olduğu kimi, yenə də BTE məhsullarını satışa çıxaracaq: **"Qiymətlər barədə isə indidən nəsə demək mümkün deyil. Məlumat üçün bildirim ki, əvvəlki formada pencək var idi, yeni nümunələrdə isə yoxdur. Bir sözlə, məktəbli formaları ilə bağlı nümunələr seçildikdən və təsdiqləndikdən sonra qiymətlər müəyyənləşəcək. Sonra bu barədə ictimaiyyətə də məlumat verəcəyik".**

***Günel CƏLİLOVA***

**Plagiatlıq arzuolunmaz hal olsa da, təəssüf ki, bütün dünyada mövcuddur və onun qarşısını tamamilə almaq mümkünsüz bir hala çevrilib. Azərbaycanda da elm sahəsində plagiatlıq hallarının olması ali məktəbləri, əlaqədar qurumları buna qarşı ciddi mübarizə tədbirləri görməyə vadar edib.**

# Universitetlərdə təzə yaradılmış plagiatlıqla mübarizə şöbələri nə iş görür...



Son zamanlar aktual problemlərdən biri bakalavr və magistr pilləsi üzrə təhsil alan gənclərin buraxılış işlərində, eləcə də tədris zamanı tələb olunan müxtəlif yazı işlərində, diplom işlərində plagiatlıq hallarının mövcudluğudur. Hətta nəinki ekspertlər, ali məktəblərdə dərs deyən müəllimlər, professorlar belə, plagiatlıq halları ilə mübarizə aparmaqda çətinlik çəkirdilər. Məlumatlara görə, ali məktəblərin bir çoxunda magistr və bakalavr pilləsi üzrə təhsil alanların yazdıqları məqalələrin, eləcə də diplom işlərinin plagiat olub-olmaması ilə bağlı xüsusi şöbələr yaradılıb. Bu şöbələrin işinin plagiat hallarını üzə çıxarmaq olduğu bildirilir. İndiyə qədər bir neçə bakalavr və magistrin yazdığı işlərin plagiat olması aşkarlanıb və onların nəticələri ləğv edilib.

Plagiatlığa qarşı mübarizə aparan ali məktəblərdən biri neçəsi artıq beynəlxalq antiplagiatlıq proqramına qoşulub. Bu sırada Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Ali Neft Məktəbi və digər ali məktəblər var. Təhsildə şəffaflığın təmin olunması məqsədilə qabaqcıl texnologiyalardan istifadə etməklə plagiatlığa cəhd göstərən bakalavr və magistrlərə qarşı ciddi tədbirlər görülür.

Bakı Ali Neft Məktəbi antiplagiat proqramına qoşularaq ABŞ-ın "Turnitin" şirkətinin "Plagatlıq faktlarının aşkarlanması internet servisi"ni tətbiq edir. Sözügedən proqramdan, ümumilikdə, dünya üzrə 140 ölkədə 15.000-dən artıq müəssisə istifadə edir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) antiplagiat sisteminin inzibatçısı, bu ali məktəbin müəllimi Cavidə Dəmirova "Bakı-Xəbər"ə bildird ki, ADNSU-da bu hala qarşı kəskin mübarizə aparılır. "Plagiatlıq çox böyük problemdir və hər yerdə mövcuddur. Mustafa Babanlı ADNSU rektoru olduqdan sonra universitetdə bu hala qarşı ciddi mübarizə həyata keçirilməyə başladı. Buraxılış, magistr işlərinin və dissertasiyaların keyfiyyətini daha da artırmaq, səviyyəsini qaldırmaq, işlənmiş mövzuların təkrar olunmaması üçün antiplagiat sisteminin yaradılması vacib idi. Bu, tələbələri və müəllimləri yeni mövzular işləməyə və bir-birindən plagiatlıq etməməyə vadar edir. Plagiatlıq hallarının qarşısının alınması üçün ADNSU beynəlxalq antiplagiat proqramına qoşulub. Biz Polşada yerləşən müvafq şirkətlə müqavilə bağlamışıq və

***Cavidə Dəmirova:** "Bizdə antiplagiat sistemi qurulub və hər kafedrada, fakültədə də bizim operatorlar var"*

***Sevinc İsgəndərova:** "Azərbaycan Texniki Universiteti tərəfindən istifadə edilən hazırkı antiplagiat proqramı digər antiplagiat proqramları ilə..."*

2015-ci ildən onlarla əməkdaşlıq edirik. Səhv etmirəmsə, ADNSU Azərbaycanda beynəlxalq antiplagiat proqramına qoşulan ilk ali məktəblərdən biridir".

İndiyə qədər plagiat işlərin aşkarlandığını deyən C.Dəmirova vurğuladı ki, faktlar olsa da, rəqəmlər əlinin altında olmadığı üçün, konkret olaraq neçə nəfərin yazdığı işdə plagiat olduğunu deyə bilməz. "Əlimdə hazırda dəqiq rəqəm yoxdur. Amma plagiatlıq halları olur. Əgər işlərdə plagiatlıq halları çox olursa, həmin iş ləğv olunur, müəyyən qədər azdırsa, onu yenidən işləməsi üçün bakalavr və magistrlərin özlərinə qaytarırıq. Tələbə də yenidən işləyir. Mövzusu ləğv edilən bakalavr və magistrlər isə sonradan başqa mövzu götürüb işləyir. Bizdə antiplagiat sistemi qurulub və hər kafedrada, fakültədə də bizim operatorlar var, o operatorlar vasitəsilə kafedradan çıxan işlər yoxlanılır və sonra həmin işlər komissiyaya verilir, komissiya da o işlərlə bağlı konkret qərar verir" - deyə C.Dəmirova qeyd etdi.

Bu gün hələ antiplagiat sistemini qurmayan ali məktəblər də var. Azərbaycan Texniki Universitetinin mətbuat katibi Sevinc İsgəndərova qəzetimizə bildirdi ki, təmsil etdiyi ali məktəbdə antiplagiat proqramı mövcuddur: "Mövcud antiplagiat sistemlərində çoxdillilik prinsipləri gözlənilsə də, hələlik dilin xüsusiyyətlərindən asılı olmayan universal antiplagiat sistemləri yaradılmayıb. Odur ki, Azərbaycan Texniki Universiteti (AzTU) tərəfindən istifadə edilən hazırkı antiplagiat proqramı digər antiplagiat proqramları ilə (PlagAware, PlagScan, Check for Plagiarism, iThenticate, PlagiarismDetection, Academic Plagiarism, The Plagiarism, Checker, Urkund, Docoloc) müqayisə edilməkdədir. Eyni zamanda, universitetin "Kompyuter sistemləri və şəbəkələri" kafedrası plagiatlığın yoxlanılması məqsədilə alternativ variantlar üzərində çalışır. Bu məqsədlə "Plagiatın aşkarlanması üçün verilmiş sənədə oxşar sənədlərin müəyyən edilməsi üsul və alqoritmlərinin işlənməsi" və "Antiplagiat sistemi üçün verilənlər bazasının strukturunun işlənməsi və yaradılması" mövzularında magistr işləri də yazılır. Bu sahədə aparılan işlər tamamlandıqdan sonra universitetin antiplagiat proqramlarından istifadəsi ilə bağlı qərar veriləcək" - deyə mətbuat katibi vurğuladı.

***İradə SARIYEVA***

# İsmayıllının Gəraybəyli kənd kitabxanası - əgər ona kitabxana demək olarsa...

**Azərbaycanda kitabxana sisteminin yenidən qurulduğu, yalnız paytaxt və iri rayonlarda, qəsəbələrdə deyil, o cümlədən, ucqar kəndlərdə də müasir tələblərə cavab verən kitabxanaların formalaşdırıldığı bildirilsə də, təəssüf ki, sakinlər, kitabxanalardan mütəmadi istifadə etmək arzusunda olanlar bunun əksini deyirlər.**

Kitabxanaların cəmiyyətdə oxu mədəniyyətinin formalaşdırılmasında, eləcə də informasiya ilə təmin olunmasında mühüm bir sistem olduğu sirr deyil. Lakin bəzi hallarda əlaqədar qurumların kənd kitabxanalarına laqeyd münasibəti həm bu sistemdə çalışanlara, həm də oxuculara mənfi təsir göstərir.

Son zamanlar tez-tez ucqar kəndlərin sakinlərindən kəndlərindəki kitabxanaların acınacaqlı vəziyyətdə olmasına dair şikayətlər eşidirik, bununla bağlı redaksiyamıza çoxlu müraciət edilir. Biz də, öz növbəmizdə, həmin məsələləri araşdırmağa, işıqlandırmağa çalışırıq.

İsmayıllı rayonunun Gəraybəyli kəndində yaşayan daimi oxucularımızdan bir neçəsi kənddə yerləşən kütləvi kitabxananın ağır durumu barədə redaksiyamıza məlumat vermişdi. Kənd sakinləri bildirirdilər ki, kitabxana köhnə fin evində fəaliyyət göstərir, təmirsizdir və burada nə istilik sistemi, nə işıq, nə sanitar qovşağı, nə də başqa tələb olunan vasitələr var. Bir sözlə, Gəraybəyli kənd kütləvi kitabxanası baxımsız vəziyyətdədir. Bu da kitabxananın daimi oxucuları olan şagirdlərin və yaşlı insanların soyuq havalarda kitabxanaya gəlməsinə maneə törədir. Kitabxana otaqlarının buz kimi soyuq və nəm olması buradakı kitablara da ciddi zərər vurur.

Kənd sakinlərinin Gəraybəyli kənd kitabxanasından təqdim etdikləri fotogörüntülərdən kitabxanadakı vəziyyətin həqiqətən də acınacaqlı olduğu görsənir.

20 aprel 2018-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ləğv olunsa da, ayrıca Mədəniyyət Nazirliyi formalaşdırılsa da, hələ də kitabxananın önündə "İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsi MKS-nin Gəraybəyli kənd filial kitabxanası" yazılmış dəmir lövhə də diqqəti çəkməyə bilmir. Bu adda regional idarələr çoxdan ləğv olunsa da, lövhənin yenilənməməsi təəccüb doğurur.

Kitabxanadakı vəziyyəti gözlərimizlə gördükdə isə daha da dəhşətə gəldik. XXI əsrin kitabxanasında otaqların qapı və pəncərəsinə "klyonka" çəkilməsi çox acı bir mənzərə idi. Soyuqdan qorunmaq üçün kitabxana işçilərinin gücü buna çatmışdı.

Kitabxana filialının müdiri Elnarə Poladova ilə əlaqə saxladıq. E.Poladova bildirdi ki, kitabxana həmişə aidiyyəti qurumların nəzarətindədir. Kitabxana binasının 1957-ci ildə taxtadan tikildiyini deyən direktor qeyd etdi ki, indi də həmin binada fəaliyyət göstərirlər: "4 il bundan əvvəl kitabxananın dam örtüyü dəyişdirildi. Çünki yağan yağış kitabxananın içinə yağırdı, kitablar islanıb yararsız vəziyyətə düşürdü, döşəməyə də ciddi ziyan dəyirdi. Rayon Mədəniyyət İdarəsi kitabxananın dam örtüyünü və pəncərələrini dəyişsə də, digər problemlər olduğu kimi qaldı. Məsələn, filial kitabxanasının yerləşdiyi bu binada işıq sistemi yoxdur, burada oturmaq mümkün olmur. İşıq sayğacı qoyulsa da, işıq verilmir. Burada heç sanitar qovşaq da yoxdur. Qışda bura elə soyuq olur ki, gün boyu soyuqda oturmağa məcburuq. Otaqların soyuq olması, qızdırıcının olmaması kitablara da böyük zərər vurur".












E.Poladova qeyd etdi ki, həm özü, həm də kənd camaatı 1957-ci ildə inşa edilən və zəngin keçmişi olan kitabxananın diqqət və qayğı ilə əhatə olunmasını istəyirlər. Onun sözlərinə görə, kitabxanada kitab çatışmazlığı da var. "Əsas oxucularımız məktəblilər və təqaüdçülərdir, onlar da istədikləri kitabları tapa bilmirlər. Yeni nəşrlər alırıq, amma bizim ən çox ehtiyacımız olan uşaq ədəbiyyatı nəşrləridir, kitablarıdır ki, onlara tələbat böyükdür. Ktabxanamız 5 otaqdan ibarətdir, fondumuzda isə 4500-dən artıq kitab var. Ziyanvericilərə qarşı mübarizədə də çətinlik çəkirik, otaqlar təmirsizdir, bir də görürsən ki, siçan olur. Buna qarşı bizə dərman verilməlidir, amma yoxumuzdur. Burada istilik sistemi olmalıdır ki, kitablar kiflənməsin" - deyə E.Poladova qeyd etdi.

O, həmçinin, bildirdi ki, kitabxananın ətrafı yerli bələdiyyə tərəfindən "setka" ilə çəpərlənib və bu da əraziyə mal-heyvanın girməsinin qarşısını alır.

Ümid edirik ki, Mədəniyyət Nazirliyi və yerli mədəniyyət idarəsi Gəraybəyli kənd kütləvi kitabxana filialının vəziyyəti ilə yaxından maraqlanacaq. Kitabxananın vəziyyətini təqdm edəcəyimiz şəkillər daha aydın təsvir edir.

***İradə SARIYEVA***

№ 15 (4146) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

29 YANVAR 2020-ci il

www.baki-xeber.com

## Yaponiyada kosmik əməliyyatların yerinə yetirilməsi üçün hərbi qrup yaradılacaq



**Yaponiyanın Hərbi Hava Qüvvələrində kosmik əməliyyatların yerinə yetirilməsi üçün qrup yaradılacaq.**

Yeni hərbi bölmə 2020-ci ilin yazında fəaliyyətə başlayacaq. Bu barədə "Jane's" nəşri Yaponiyanın baş naziri Sindzo Abeyə istinadən məlumat verib.

"İctnews.az" bildirir ki, eskadrilya Tokio prefekturasının qərbində Futyu aviabazasında yerləşəcək. Yaradılması üçün 450 milyon dolların sərf ediləcəyi qrupun tərkibi 20 nəfərdən ibarət olacaq. Bölmənin əsas vəzifəsi Çin və Rusiya peyklərinin izlənilməsi olacaq. Həmçinin qrup Yaponiyanın hərbi kosmik texnologiyalarının hazırlanmasına nəzarəti həyata keçirəcək, eləcə də kosmik tullantıların hərəkət trayektoriyasının təhlilini aparacaq. Bundan əlavə, qrup peyklərlə rabitə əlaqəsi yaratmaq və radiorabitədə maneələri aradan qaldırmaqla məşğul olacaq. Qeyd edək ki, bu yaxınlarda Böyük Britaniyada oxşar hərbi bölmə yaradılıb. Ölkənin Müdafiə Nazirliyinin məlumatına görə, yeni struktur Böyük Britaniyanın bütün kosmik qüvvə və proqramlarını birləşdirəcək. Onların sırasına peyklərdən ballistik raketlərin aşkarlanması sistemi, "GNSS" (GPS sisteminin analoqu) qlobal naviqasiya sistemi və hazırda işlənilən digər proqramlar daxildir.

## Universal yaddaş tipi hazırlanıb

**Böyük Britaniyanın Lankaster Universitetinin tədqiqatçıları tərəfindən hazırlanmış yeni yaddaş tipi həm əməli yaddaş qurğusu, həm də məlumatların saxlanılması kimi işləyə bilər.**

"UltraRAM" adlı perspektiv texnologiya müasir kompüter, smartfon və başqa hesablama texnikalarının iş prinsipini tamamilə dəyişdirmək imkanına malikdir. "İctnews.az" bildirir ki, yaradıcıların sözlərinə görə, "UltraRAM" texnologiyası özündə əməli və fləş yaddaşın üstünlüklərini birləşdirir.

Məlumatların saxlanılması üçün ənənəvi olaraq sərt disklər və ya sərtgövdəli (SSD) daşıyıcılardan istifadə olunur, amma onların sürəti əməli yaddaşın işləmə sürətindən xeyli aşağıdır.

Nəzəri cəhətdən əməli yaddaş qurğusu məlumatların saxlanılması kimi istifadə edilə bilər, amma bu, onun yüksək qiymətinə görə səmərəsizdir. "UltraRAM" enerjidən asılı olmayan əməli yaddaş (Non-volatile RAM və ya NVRAM) növüdür, DRAM kimi eyni sürətlə işləyir, amma 100 dəfə daha az enerji sərf edir. Lankaster Universitetinin alimləri əmin edirlər ki, yeni universal yaddaş çatışmazlığa malik deyil və bu, onu əməli və fləş yaddaş əvəzinə istifadə etməyə imkan verir.

## Elan

Qasımova Nilgün Məhərrəm qızına Bakı Slavyan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Bayramova Solmaz Sevindik qızına məxsus, Bilgəh qəsəbəsi, bağ massivində yerləşən N886 bağ sahəsinin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

---

Vahabova Şəlalə Yusifəli qızına məxsus, Bilgəh qəsəbəsi, bağ massivində yerləşən N885 bağ sahəsinin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

---

Aslanov Şəhriyar Köçəri oğluna Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidməti tərəfindən verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

## Ölümcül virusa yoluxan xəstəni robot müalicə etdi

**ABŞ-da koronovirusa yoluxan ilk insan robot tərəfindən müalicə olunub.**

"Milli.Az" xəbər verir ki, 15 yanvarda Çinin Vuhan əyalətindən ABŞ-ın Sietl şəhərinə gedən sərnişində korona virusu aşkarlanıb. Dərhal xəstəxanaya yerləşdirilən və digər xəstələrdən uzaq tutulan 30 yaşlı xəstə hələ də sağalmayıb. Xəstəyə xüsusi robot baxıcılıq edir. Belə ki, robot stetoskopdan istifadə edə bilir və xəstənin vəziyyətini ekranı vasitəsi ilə həkimlərə çatdırır. Hava limanında yoxlama nəticəsində məlum olub ki, həmin kişi ilə 43 insan ünsiyyət saxlayıb. Həmin insanlarda da virusun olub-olmasını analiz edənə kimi həkim nəzarətində saxlanacaqlar.

---

## Sərxoş kişinin dişlədiyi it ölüb - Qəribə olay

**45 yaşlı kişi yerli içki olan akpeteş içdikdən sonra bərk sərxoş olub.**

Evinin həyətində küçədə olan itlərdən biri onun ayağından dişləyib qaçıb. Kişi itin arxasınca qaçaraq, onu tutmağa nail olub və itin ayağını gəmirib. Kişi sərxoşluqdan özündə olmasa da, sonradan bunu qəzəbindən cavab olaraq etdiyini bildirib. "Medicina.az" bildirir ki, hadisə Qana şəhərində baş verib. Kolluğa qaçan it ağrıdan bir neçə dəqiqə hürüb zingildəsə də, sonra səsi kəsilib. Qonşular və kişi itə baxdıqda onun öldüyünü görüblər, heyvanın ağzından köpük gəlib. Yerli əhali bildirir ki, it "Akpeteş" adlı içkinin itin qanına keçməsindən ölüb. Qanada məşhur olan bu içki palma şərabından hazırlanır və 40-50 dərəcəyə qədər tünd olur. Görünür, bu içki heyvana toksiki təsir göstərib.

---

## "Facebook" robotlara xəritəsiz hərəkət etməyi öyrədib

**"Facebook" tərəfindən hazırlanmış süni intellekt robotlara xəritəsiz hərəkət etməyə imkan verir. Bu haqda şirkətdən məlumat verilib.**

"İctnews.az" bildirir ki, bir çox robotlar datçiklərin göstəricilərinə və ya ərazi üzrə oriyentirlərə əsasən artıq xəritəsiz hərəkət edə bilirlər. Ancaq xəritəsiz istiqamətin müəyyənləşdirilməsi yalnız öncədən təyin edilmiş marşrut üzrə hərəkət etməyə imkan verir. Başqa sözlə, robot öz yolunda maneə ilə qarşılaşdıqda istiqamətini dəyişdirə bilmir və ilişib qalır. "Facebook"un mühəndisləri bu problemi həll ediblər: sınaqlar zamanı onlar tərəfindən yaradılmış robotların idarə edilməsi üçün süni intellekt onlara 99,9% halda təyinat nöqtəsinə çatmağa imkan verib. Bu halda robotlar 3% öncədən müəyyənləşdirilmiş marşrutdan kənara çıxıblar. Tədqiqatçıların sözlərinə görə, bu, hərəkət zamanı yaranan maneəni dəf etmək üçün kifayətdir. Belə halda robotlar dərinlik sensoruna malik standart RGB-kamera, GPS və kompasla təchiz edilib.





**Qoç** -Fantaziyanız sərhəd tanımır. Ən qeyri-adi və qəribə fikirlər, ixtiralar sizi məşğul edəcək. Düzdür, ideyalarınız elə ideya olaraq qalacaq, ancaq bu nə sizi, nə də ətrafınızdakıları kədərləndirməyəcək.



**Buğa** - Çətinlikləri əvvəlcədən görmək bacarığı şəxsi həyatınızda köməyinizə gələcək. Məhz bu gün yaxınlarınızla bir çox vacib məsələləri həll edə bilərsiniz.



**Əkizlər** - Bu gün nəyəsə müstəqil olaraq nail olmaq fikrindən vaz keçin. Vaxtında kiminləsə qüvvələrinizi birləşdirsəniz, məqsədinizə bir elə tez və asanlıqla çatacaqsınız. Ancaq müştərək işə qoşulmazdan öncə bütün detalları müzakirə edin.



**Xərçəng** - Özünüzü yormayın, bu gün enerjinizi qorumağınız vacibdir. Axşam başınız ağrıya, yuxusuzluqdan əziyyət çəkə bilərsiniz. Gərək olmadan dərman qəbul etməyin.



**Şir** - Qeyri-adi yerlərə gedin, dünyagörüşünüzü genişləndirməyə çalışın. Köhnə dostlarınızın sizi ziyarət etməsi könlünüzü açacaq, onların hətta sizin həyat tərzinizə uyğun gəlməyən təklifləri sizə maraqlı görünəcək.



**Qız** - Gün bir çoxlarına çətin gələcək. Qəflətən hadisələr elə yöndə cərəyan etməyə başlayacaq ki, insanlar çaş-baş qalacaqlar. Stress keçirməyə alışmış insanlar özlərini tez ələ ala biləcək, xilas olmaq üçün plan hazırlayacaqlar.



**Tərəzi** - İstədiyiniz kimi hərəkət edə biləcəyiniz gün gəlib yetişdi. Enerjiniz aşıb-daşır, istənilən işin öhdəsindən gəlməyə qadirsiniz. Bircə məsələ qanınızı qaralda bilər - çox pul sərf etməli olacaqsınız.



**Əqrəb** - Xoşunuza gəlməyən insanlarla ünsiyyət sizi qıcıqlandıracaq. Məişət problemləri də sizi yoracaq. Dostlarınızla görüş planlamısınızsa, yaxşı olar ki, onu evdə deyil, məsələn, bir kafedə keçirəsiniz.



**Oxatan** - Daha çox eyni bürcdən olan insanlar bir-birlərilə dil tapa biləcəklər. Orqanizmi artıq yüklənmədən qorumaq, sağlamlığı möhkəmlətmək üçün profilaktik tədbirlər görmək lazımdır.



**Oğlaq** - Bu gün yaranan imkanlardan istifadə edə biləcəksiniz. Ancaq bəzi anlaşılmazlıqlar, küskünlüklər də mümkündür. Çalışın, hisslərinizi cilovlayasınız, yaxınlarınızla ünsiyyətdə bir qədər səbrli olun, neqativ emosiyalara yol verməyin.



**Dolça** - Aktiv fəaliyyətinizi yavaşıdıb ətrafda baş verənlər barədə fikirləşsəniz, heç də pis olmaz. Son vaxtlar əldə etdiyiniz uğurları və uğursuzluqları dəyərləndirin, çox güman ki, harada səhv etdiyinizi anlayacaqsınız.



**Balıqlar** - Sizin bütün yeniliklərə qarşı həddən artıq marağınız qorxulu situasiyaların yaranmasına səbəb ola bilər. Qarşınıza çıxan maneələri dəf edə biləcəksiniz, sadəcə, təmkininizi qorumaq lazımdır.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Şəkər insan beyninə necə təsir edir?

**Danimarkanın Orxus Universitetinin alimləri şəkərin insan beyninə necə təsir etməsi ilə bağlı maraqlı araşdırma aparıb.**

"Axar.az" bildirir ki, araşdırmanın nəticələri "Scientific Reports" jurnalında dərc olunub. Alimlər donuzlar üzərində araşdırma aparıb və müşahidə ediblər ki, şəkər həqiqətən də donuzların beyninə nakotik kimi təsir göstərir. Belə ki, 12 gün ərzində donuzlara hər gün şəkərli su veriblər. Daha sonra MRT proseduru ilə heyvanların 12 gün əvvəlki beyinləri ilə testlərdən sonrakı beyinlərini müqayisə ediblər. "Cəmi 12 gün şəkər qəbulundan sonra biz beyindəki dofamin və opioid sistemlərində ciddi dəyişikliklərin baş verdiyini müşahidə etdik. Kimyəvi planda rifah və zövqlə əlaqəli olan opioid sistemi elə birinci qəbuldan sonra dərhal aktivləşdi", - alim bildirib. Alimlər aşkar ediblər ki, şəkər də narkotik kimi beyinin qidalanma sisteminə təsir göstərir. Zövq, xoşbəxtlik və rifah duyğuları ilə əlaqəli olan qidalanma sistemi cinsi əlaqə, ünsiyyət və ya yeni bir şey öyrənmək kimi digər yollarla da aktivləşdirilə bilər, lakin süni amillər bəzən daha sürətli və güclü fəaliyyət göstərir.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.